www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3-4 oktyabr 2015-ci il Şənbə № 218 (6246) Qiymәti 40 qəpik

Xəbər

## Qarabağda gərgin döyüşlər - düşmən daha 2 əsgərini itirdi

yazısı səh.13-də

Gündəm



### Üç deputat seçkidə iştirakdan imtina etdi

Abbas Abbasovun oğlu "millətə xidmət edəcəyini" dedi; Etibar Hüseynov "arxalı" olmaqdan danışdı; Leyla Abdullayeva isə deyəsən, vəzifəyə gedir

yazısı səh.3-də

### Prezident pedaqoqlara "Tərəqqi" medalı və "Əməkdar müəllim" adı verdi

yazısı səh.2-də

### Hakimiyyət nə üçün müxalifəti parlamentə buraxmır...

yazısı səh.6-da

### Azərbaycan Qarabağda lokal müharibəyə hazırlaşır?

yazısı səh.9-da

### Amerika Bakıya öz təmsilçilərini göndərir

yazısı səh.2-də

### Müsavatın məhbus funksionerləri seçkidən kənarda qaldılar...

yazısı səh.6-da

### Laçınlı məcburi köçkünlər aksiya keçirdi - həbs olunanlar var

yazısı səh.2-də

*Mehman Əliyev:*

### "Bakı Gömrük İttifaqına qoşulmaq istəmir"

yazısı səh.11-də

### "Şərurlu İsfəndiyar"a 2,7 milyon manat "atıb"lar

yazısı səh.10-da

### Arzu Səmədbəyli Avropa Məhkəməsi yolunda

yazısı səh.2-də

### Süni düyüləri necə tanımalı...

yazısı səh.15-də

### MTRŞ veriliş qapada bilərmi...

yazısı səh.12-də

"Nəqliyyat kralı" "taxt-tacını" xilas etmək üçün hərəkətə keçib

# ZİYA MƏMMƏDOV MÜQAVİMƏTƏ BAŞLADI- VİLLASINDA GİZLİ TOPLANTI

Məmmədovların parlament seçkiləri ərəfəsində tam zərərsizləşdirilməsi indilikdə iqtidarın marağında deyil; nazirin yaxın çevrəsi bu vəziyyətdən itirilmiş mövqelərini bərpa etmək üçün istifadə edir; ortada isə 2005-ci ildən həbsdə olan Əli İnsanov "nümunəsi" var...



yazısı səh.4-də

## Kremlin Suriya avantürası Azərbaycan üçün kritik seçim yaradıb

Türkiyə SQ Baş Qərargah rəisinin Bakı səfərinin mühüm pərdəarxası; ABŞ başda olmaqla 7 dövlətdən Moskvaya xəbərdarlıq gəldi; tanınmış rusiyalı ekspertdən sensasiyalı açıqlama: "Rusiya üçün dünya müharibəsi başlayıb..."

yazısı səh.5-də



*İlqar İbrahimoğlu:*

### "Seçkidə nə özümüz iştirak edəcəyik, nə də kiməsə dəstək verəcəyik"

yazısı səh. 8 və 9-da



### Pənah Hüseynin rəqibi namizədliyini onun xeyrinə geri götürdü

yazısı səh.2-də



### Samir Şərifov Cahangir Hacıyevi ciddi səhvlərə yol verməkdə suçladı

yazısı səh.10-da

## Prezident pedaqoqlara fəxri adlar verdi



**Prezident İlham Əliyev qarşıdan gələn Müəllim günü münasibəti ilə bir qrup təhsil işçisini mükafatlandırıb. Prezidentin sərəncamı ilə 60 təhsil işçisinə "Tərəqqi" medalı, 60 pedaqoqa isə "Əməkdar müəllim" fəxri adı verilib.**

## DİN "böyrək alveri" xəbərinə reaksiya verdi



**DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov iki gün öncə mediada böyrək alverinə dair yayılan fotoşəkillə bağlı açıqlama verib. E.Zahidov qeyd edir: "Diqqətli vətəndaşlarımızın yəqin ki, hələ də xatirindədir, keçən ilin iyun ayında Bakı metrosunun "Qara Qarayev" stansiyasının çıxışında naməlum şəxslərin insan böyrəkləri satması ilə əlaqədar elanların asılması barədə kütləvi informasiya vasitələrində, eləcə də sosial şəbəkələrdə məlumatlar yayılmışdı.**

Elə o vaxt Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi əməkdaşlarının dərhal həyata keçirdikləri tədbirlər nəticəsində başqasına məxsus mobil telefon nömrələrini göstərməklə həmin elanları yazıb qeyd olunan ərazidə yaymış iki nəfər- Bakı şəhər sakinləri, 19 yaşlı Emil Emkiyev və 17 yaşlı Muxtar İsmayılov müəyyən edilərək saxlanılmışdılar. Araşdırma zamanı gənclər heç də böyrəklərini satmaq fikrində olmadıqlarını, belə elan verməkdə məqsədlərinin vətəndaşlarla guya zarafat etmək və cəmiyyətin buna reaksiyasını öyrənmək olduğunu bildirmişdilər. Onlar əməllərindən səmimi peşmançılıq keçirərək etdikləri hərəkətlərə görə üzr istəmiş və bir daha belə "zarafat"lar etməyəcəklərinə söz vermişdilər. E.Emkiyevə və M.İsmayılova ciddi xəbərdarlıq edildikdən sonra sərbəst buraxılmışdılar. O vaxt İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi bu məlumatı yayaraq məsələyə aydınlıq gətirmişdir.

Lakin bu məlumatın üstündən bir ildən də çox vaxt keçəndən sonra, yeni dünən, bəzi xəbər portallarında və sosial şəbəkələrdə eyni məzmunlu məlumat yayıldı ki, yenə kimsə böyrəyin satır. Bu dəfə də DİN rəhbərliyinin göstərişi əsasında dərhal araşdırmalara başlanıldı və məlum oldu ki, elanlar da, orada göstərilən mobil telefon nömrələri də, elanların asıldığı yer də ötən ilkidir. Sadəcə kimlərsə o vaxt saytlarda getmiş həmin xəbəri eşələyib çıxarıb və yenidən yayıb. Çox təəssüflər olsun ki, bəzi "qazdan ayıq" xəbər saytları da bu məlumatın köhnəliyini tuta bilməyib, dəqiqləşdirmə aparmadan, mahiyyətinə varmadan dərhal "şok xəbər" kimi yayıblar".

## Amerika Bakıya öz təmsilçilərini göndərir



**Gələn həftə ABŞ-dan Azərbaycana nümayəndə heyəti gələcək. Bu barədə diplomatik mənbələrdən "Yeni Müsavat"a daxil olan məlumata görə, səfərdə məqsəd iki ölkə arasında yaşanan gərginliyin müzakirə olunmasıdır.**

Adının çəkilməsini istəməyən mötəbər mənbəmiz bildirdi ki, Bakıya gələcək nümayəndə heyəti Azərbaycanda yüksək səviyyəli görüşlər keçirmək və münasibətlərdəki konfrantasiya mühitinin aradan qaldırılması üçün çözüm yollarını birgə müzakirə etmək niyyətindədir. Hesab olunur ki, rəsmi Bakının ABŞ-ın təzyiqləri qarşısında geri çəkilməməsi, hətta Dövlət Departamentinin sərt tənqidlərinə adekvat dinləmələr və mətbuat yazıları ilə cavab verməsi ABŞ-ı bəzi addımlara vadar edib. Aldığımız məlumatlarda o da bildirilir ki, Amerika diplomatları həbsdə olan Leyla Yunus və Xədicə İsmayılın azad olunması üçün də xahiş edəcəklər.

**Aldığımız məlumatlarla əlaqədar ABŞ səfirliyinin mətbuat xidmətinin rəhbəri Mehdi Hüseynquliyevə ünvanladığımız suala isə onun cavabı qısa oldu:** "Gələn həftə ABŞ Dövlət Departamentinin illik Beynəlxalq Din Azadlığı Hesabatına aid olan nümayəndə heyəti Bakıya gələcək".

❑ **ELŞAD**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Azay Quliyev Aİ-nın ikili yanaşmasına etirazını bildirib

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında Almaniya Azərbaycan Forumunun rəhbərlərindən olan tanınmış hüquqşünas Hans Eberhard Şlayer və publisist Rixard Kisler ilə görüş keçirilib. Görüşdə bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**



Hans-Eberhard Şlayer təmsil etdiyi qurumun fəaliyyətinə toxunaraq bildirib ki, rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri Almaniya-Azərbaycan əlaqələrinin inkişafına, xüsusilə iki ölkənin sahibkarları arasında ticarət əlaqələrinin genişlənməsinə müsbət töhfə vermək məqsədi daşıyır. Cənab Şlayer Azərbaycan sahibkarlarının bu ilin noyabr ayında Almaniyanın Ştutqart şəhərinə planlaşdırılan səfərinin ikitərəfli biznes münasibətlərinin inkişafının göstəricisi olduğunu deyib. Cənab Şlayer qeyd edib ki, Almaniya ictimaiyyəti təəssüfki, Azərbaycan haqqında dolğun məlumata malik deyil. Məhz bu məlumatsızlıq yerli mediada Azərbaycana qarşı əsassız yazıların dərc olunmasına gətirib çıxarır. Qonaq həmçinin Almaniyanın və ümumilikdə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri ilə bağlı düşünülmüş strategiyasının olmadığını xüsusi vurğulayaraq Ukraynadakı hadisələrin bunu təsdiq etdiyini bildirib.

**Azay Quliyev, Almaniya-Azərbaycan Forumunun üzvlərinin Azərbaycana səfərinin əhəmiyyətini vurğulayıb və qonağın Ukraynadakı hadisələri ilə bağlı fikrini dəstəklədiyini qeyd edib:** "Əgər vaxtı ilə Avropa İttifaqı mövcud həll edilməmiş münaqişələrə və işğalçı dövlətlərə eyni yanaşma sərgiləsəydi və burada iki standartdan çıxış etməsəydi, Ukraynadakı hadisələrin qarşısını almaq olardı".

A.Quliyev təəssüflə bildirib ki, Almaniya mətbuatında Azərbaycan haqqında dərc olunan əsassız və qərəzli yazılar həmin media orqanların ölkəmiz haqqında obyektiv məlumatlara malik olmamasından irəli gəlir. Digər tərəfdən isə bir çox hallarda nəinki media qurumları, hətta Avropanın müəyyən siyasi dairələri belə heç bir əsası olmayan məlumatlara söykənərək və ikili standartlardan çıxış edərək ölkəmizə qarşı qərəzli və ədalətsiz addımlar atırlar. Almaniya Bundestaqı və Avropa Parlamenti tərəfindən Azərbaycana qarşı qəbul edilən son qətnamələr buna sübutdur. Bu cür haqsız addımlara cavab olaraq Azərbaycan AVRONEST PA-dan çıxmaq haqqında qərar qəbul etməyə və Aİ ilə münasibətlərinə yenidən nəzərdə keçirtməyə məcbur olub.

**Şura sədri qeyd edib ki, gələn il ATƏT-də sədrliyin Almaniyaya keçməsi rəsmi Berlinin Avropada iki standartlar siyasətinə son qoymasına və işğalçı Ermənistana qarşı sanksiyaların tətbiqi ilə bağlı qərarların qəbuluna əlverişli fürsət yaradacaq.**



# "Yeni Müsavat"ın iki müxbiri BMCMİ-yə çağırıldı - səbəblər

**"Yeni Müsavat" qəzetinin iki müxbiri oktyabrın 2-də Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılıb. Səbəb bir neçə gün əvvəl qəzetin müxbirlərinin "Tornado" mühafizə şirkətinin əməkdaşları tərəfindən fiziki təzyiqlərə məruz qalmaları, onlara qarşı zor tətbiq etmələri olub.**

Jurnalistlər zərərçəkmiş şəxs kimi ifadə veriblər.

Xatırladaq ki, sentyabrın 21-də Sabunçu rayonu ərazisində "Tornado" şirkəti tərəfindən aparılan söküntü işləri ilə bağlı çəkiliş etmək istəyən reportyorlar Məhəmməd Türkmən və İlkin Muradova şirkətin mühafizə xidmətinin 10 nəfərə yaxın əməkdaşı tərəfindən təzyiq göstərilib.

Jurnalistlər şirkətin əməkdaşlarına vəsiqələrini göstərərək özlərini təqdim etsələr də, buna məhəl qoyan olmayıb. Əvəzində şirkətin işçiləri jurnalistlərin üstünə hücum çəkərək təhqir ediblər və fiziki təzyiq göstəriblər.

Baş verən hadisədən sonra "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubova müraciə etmişdi. Baş redaktor nazirə müraciətində bu vəziyyətdə digər əməkdaşlarının da həyatlarına ciddi təhlükə yarandığını hiss etdiyini bildirmişdi.

Rauf Arifoğlu jurnalistlərə qarşı terrora yol vermiş şəxslərin tapılıb, cəzalandırılmamasının onları başqa qanunsuz əməllər törətməyə ruhlandıra biləcəyini qeyd edərək, məsələnin tez bir zamanda hüquqi qiymət alması məqsədilə Ramil Usubova müraciət etmişdi.

**Baş redaktorun müraciəti Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən araşdırılır.**



## Arzu Səmədbəyli Avropa Məhkəməsi yolunda

**Oktyabrın 2-də Bakı Apelyasiya Məhkəməsində hakim Elmira Nağıyevanın sədrliyi ilə Müsavat Partiyasından deputatlığa namizəd Arzu Səmədbəylinin MSK-nın qərarından şikayətinə baxılıb. Partiyadan verilən məlumata görə, Arzu Səmədbəylinin namizədliyin qeydə almayan 8 saylı Dairə Seçki Komissiyası hansı imzaları və niyə etibarsız saydığı barədə heç bir sübut, sənəd təqdim etməyib.**

Bundan sonra Arzu Səmədbəylinin səlahiyyətli nümayəndəsi Elxan Rüstəmov DSK-nın qərarından MSK-ya şikayət edib. Lakin MSK DSK-nın qərarını qüvvədə saxlamışdı.

Apelyasiya Məhkəməsində də şikayətin predmetinə məhəl qoyulmayıb. MSK-nın çıxardığı qərarın əsassız olduğu dəlillərlə sübut edilsə də, məhkəmə şikayəti təmin etməyib.

A.Səmədbəyli Bakı Apelyasiya Məhkəməsinin qərarından Ali Məhkəməyə şikayət edəcəyini, burada da ədalətin bərpa olunmayacağı təqdirdə Avropa Məhkəməsinə müraciət edəcəyini bildirib.

## Pənah Hüseynin rəqibi namizədliyini onun xeyrinə geri götürdü



**Azərbaycan Xalq Partiyasının deputatlığa namizədi Novruz Quluzadə namizədliyini Pənah Hüseynin xeyrinə geri götürüb. Musavat.com-un məlumatına görə, Novruz Quluzadə bütün imzaları yığmasına, sənədləri toplamasına baxmayaraq, öz təşəbbüsü ilə təşkilatın müvafiq orqanına müraciət edib. O bildirib ki, 63 saylı Sabirabad 1-ci Seçki Dairəsindən Pənah Hüseynin xeyrinə namizədliyini geri götürmək istəyir.**

AXP Mərkəzi Şurası tövsiyə edib ki, həmin dairədə AXP-dən Pənah Hüseynin namizədliyi təsdiq olunduğu üçün Novruz Quluzadənin təşəbbüsü qəbul edilsin və AXP 63 saylı dairədə bir namizəd - Pənah Hüseynlə iştirak etsin.

Qeyd edək ki, Milli Məclisə seçkilər noyabrın 1-də keçiriləcək.

❑ **Gülnar SÜLEYMANOVA**

## Laçınlı məcburi köçkünlərin etiraz aksiyasında həbs olunanlar var



**Oktyabrın 2-də Laçın rayon sakinləri aksiya keçirib. Aksiyaya səbəb rayonun icra başçısı Akif Səlimovun sakinlərə verilməli olan torpaqları başqalarına satmasıdır. Aksiya ərazisində etirazçılara polis müdaxiləsi var. 2 nəfər həbs edilib. İlqar Məmmədov və Aslan İbrahimovun hərəsinə 15 sutka inzibati cəza verilib.**

Etirazçıların bildirdiyinə görə, həbs edilənlər polis bölməsində döyülüb. Aslan İbrahimovun ürək xəstəliyindən əziyyət çəkdiyini deyən anası Sahibə İbrahimova MeydanTv-yə deyib ki, oğlunun həkimə ehtiyacı olsa da, yanına həkim buraxılmır.

Şahidlərin sözlərinə görə, Laçın Rayon Polis Şöbəsində müvəqqəti saxlama təcridxanası olmadığı üçün həbs edilənlər Ağcabədi rayonuna göndəriliblər.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**1 noyabr parlament seçkilərində iştirak etmək üçün deputatlığa namizədliklərini verən şəxslərin seçici imzalarının və digər sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi üçün müddət 2 oktyabr saat 18-də başa çatıb.**

Qeyd edək ki, deputatlığa namizədlərin irəli sürülməsi prosesi avqustun 29-dan başlanıb. Seçkiqabağı təşviqatın aparılmasına isə oktyabrın 9-da başlanacaq, 31 oktyabr saat 08:00-da dayandırılacaq. 9 oktyabra qədər namizədliyi irəli sürülmüş şəxslərin sənədlərinə baxılması və qeydə alınması prosesi həyata keçiriləcək.

MSK sədri Məzahir Pənahov oktyabrın 2-də keçirilən iclasda məlumat verib ki, parlament seçkilərində namizədliyini verənlərdən 882 nəfərin deputatlığa namizədliyi qeydə alınıb. O bildirib ki, deputatlığa namizədliyi qeydə alınanlardan 213 nəfərinin namizədliyi 14 siyasi partiya tərəfindən, 5 nəfərin namizədliyi "Azadlıq-2015" siyasi partiyalar bloku, 2 nəfərin namizədliyi təşəbbüs qrupu tərəfindən, 6652 nəfər namizədliyini öz təşəbbüsü ilə irəli sürüb.

M.Pənahov onu da bildirib ki, ümumilikdə 1700 nəfər deputatlığa namizəd olmaq üçün dairə seçki komissiyalarına müraciət edib.

Hakim Yeni Azərbaycan Partiyasının deputatlığa namizədlər siyahısındakı 117 şəxsin hamısı artıq qeydiyyata alınıb. YAP-ın 41 saylı Sumqayıt seçki dairəsindən namizədi, hazırkı deputat Leyla Abdullayeva namizədliyini geri götürüb. Bu barədə azvision.az-a hakim partiyanın mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev bildirib. YAP rəsmisi bildirib ki, Leyla Abdullayeva namizədliyini öz istəyi ilə geri götürüb.

YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov isə APA-ya açıqlamasında bildirib ki, buna səbəb L. Abdullayevanın dövlət qulluğunda işə keçməsi ilə bağlıdır. O qeyd edib ki, hazırda məktəb direktoru işləyən L.Abdullayeva dövlət qulluğunda işə keçmək qərarına gəlib, bu halda isə qanun onun seçkili orqanda təmsil olunmasına icazə vermir: "Bu səbəbdən də namizədliyini geri götürüb. Onun hansı dövlət qulluğunu tutması isə hələ bilinmir. İşə götürüləndə açıqlanacaq".

Müxalifət düşərgəsindən isə Müsavat Partiyasının 2 oktyabra qədər ümumilikdə 60-dan yuxarı namizədinin sənədləri, seçici imzaları DSK-lara təqdim edilib. 2 oktyabra qədər 6 nəfərin namizədliyi təsdiq olunub, 6 nəfərin isə namizədliyinin təsdiq olunmasından imtina edilib. Bu barədə Müsavat Partiyası Seçki Qərargahının rəhbəri Gülağa Aslanlı "Yeni Müsavat"a məlumat verib. Onun sözlərinə görə, namizədlərinin ümumi sayı 70-ə yaxın olub.

7 partiyanın təmsil olunduğu "Azadlıq 2015" blokunun isə



# Üç deputat seçkidə iştirakdan imtina etdi

Abbas Abbasovun oğlu "millətə xidmət edəcəyini" dedi; Etibar Hüseynov "arxalı" olmaqdan danışdı; Leyla Abdullayeva isə deyəsən, vəzifəyə gedir; **Əli Həsənov:** "MSK seçkilərin ədalətli keçirilməsi üçün lazımi tədbirləri görüb"



Aydın Abbasov



Etibar Hüseynov



Leyla Abdullayeva

hələ ki, 5 namizədi qeydə alınıb. Bu barədə blokun Seçki Qərargahının rəhbəri Bəybala Əbil "Yeni Müsavat"a açıqlamasında deyib. O, bildirib ki, 70-ə yaxın namizədləri sənəd götürübmüş, ilkin informasiyaya görə, 30-dan nəfərdən yuxarı namizədləri sənədlərini seçki komissiyalarına təqdim edə bilib: "Bu yekun rəqəm deyil".

AMİP-in isə 2 oktyabra qədər 5 namizədi qeydə alınıb, 20 nəfərin isə sənədləri təqdim olunub və DSK-ların qərarı gözlənilir. Bu barədə AMİP katibi Elşən Mustafayev məlumat verib. E.Mustafayev deyib ki, hələlik qeydiyyatından imtina edilən namizədləri yoxdur.

### Prezident Administrasiyası seçki prosesindən razıdır

Prezident Administrasiyası, Mərkəzi Seçki Komissiyası və Mətbuat Şurasının keçirdiyi "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər: seçkiqabağı təşviqat prosesində KİV-lərin rolu və vəzifələri" mövzusunda oktyabrın 2-də keçirilən seminar-müşavirədə isə prezidentin köməkçisi Əli Həsənov seçkilərlə bağlı açıqlamalar verib. Ə.Həsəon deyib ki, Azərbaycanda müstəqillik dövründə ümumrespublika səviyyəli 15-ə qədər seçki proseduru həyata keçirilib. Bu proseslərdə mətbuatın iştirakı mütləq şəkildə təmin olunub. Ə.Həsənov bildirib ki, müəyyən nöqsanlar istisna deyil, heç bir ölkə bu nöqsanlardan sığortalanmayıb, lakin ümumi seçki nəticələrinə görə bu seçkilər ədalətli, demokratik keçib: "İnanıram ki, bu seçkilər də istisna olmayacaq. Seçkilər cəmiyyətdəki ovqatdan, ictimai mühitdən və yaradılan şəraitdən asılıdır. Mərkəzi Seçki Komissiyası bütövlükdə Azərbaycanda seçkilərin ədalətli keçirilməsi üçün bütün lazımi tədbirləri görüb".

Mətbuat haqqında danışan Ə.Həsənov qeyd edib ki, jurnalist vəsiqəsi kifayət edir ki, KİV təmsilçiləri əvvəldən axıra qədər seçki prosesini izləmək hüququna malik olsunlar: "Biz mətbuatı seçkilərin mühüm bir iştirakçısı kimi dəyərləndiririk. Mətbuatın vəzifəsi ondan ibarətdir ki, seçki mühitini doğru-düzgün təhlil etsin, əhalinin seçki ovqatının, fəallığının necə olmasını öyrənsin. Bütün bu prosesləri cəmiyyətə çatdırmaqda yeganə institut mətbuatdır. Bəzən MSK verdiyi rəyi bəzi dairələr obyektiv dəyərləndirməyə bilir, amma mətbuat bunu obyektiv dəyərləndirir. Bu baxımdan mətbuatın rolu dəyərsizdir.

Mətbuat seçkilərdə iştirak edən bütün tərəflərə, o cümlədən siyasi partiyalara, bloklara bərabər şərait yaratmalıdır. Mətbuat KİV haqqında qanun, seçki qanunvericiliyinə uyğun hərəkət etməli və dövlətin yürütdüyü plüralistik siyasətə söykənərək namizədlər üçün bərabər şərait yaratmalıdır".

Ə. Həsənov bildirib ki, xarici KİV Xarici İşlər Nazirliyində akkreditasiyadan keçəndən və MSK-ya məlumat verərək müvafiq sənəd alandan sonra seçkini izləmək hüququ əldə edə bilər. "Kütləvi informasiya vasitələri seçkiləri qərəzsiz, ədalətli işıqlandırmalıdırlar. Mətbuat Şurası fəaliyyətində KİV-lərin seçkiləri qərəzsiz, ədalətli işıqlandırmasını diqqət mərkəzində saxlayır".

Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev belə deyib.

Seçki dövründə media orqanlarının təşviqat kampaniyası ilə bağlı qanunvericiliyin tələblərinə riayət etməsini zəruri sayan U. Mirzəyev bildirib ki, Mətbuat Şurası seçkilər dövründə də monitorinqlər keçirir: "Mətbuat Şurası apardığı monitorinqlər zamanı KİV-də seçkilərlə bağlı məlumatları diqqət mərkəzində saxlanılır, balans prinsipinin pozulması, kontekstdən çıxarılmış fikirlərlə manipulyasiya və digər mənfi hallar nəzərə alınır. Mətbuat Şurasının üzvləri seçki günü də seçki məntəqələrində olur, jurnalistlərə yaradılmış şəraitlə maraqlanırlar. Mətbuat Şurasının üzvləri bu dəfə də seçki günü seçki məntəqələrinə baş çəkəcək, jurnalistlərin peşə fəaliyyətini yerinə yetirməsi ilə bağlı məsələləri diqqət mərkəzində saxlayacaq".

Müəyyən dairələrin anti-Azərbaycan kampaniyasına toxunan U. Mirzəyev beynəlxalq aləmdə Azərbaycan xalqının və dövlətinin müsbət imicinin formalaşması istiqamətində mətbuatın fəaliyyətinin önəmli olduğunu qeyd edib.

### İsa Qəmbərə DSK sədrinin qəribə məktubu...

Deputatlığa namizədliyi qeydə alınan keçmiş Müsavat başqanı İsa Qəmbər isə namizəd kimi qeydə alındığı 15 saylı Yasamal birinci seçki dairəsinin Dairə Seçki Komissiyasının sədri Sərdar Süleymanovdan məktub alıb. DSK sədri məktubda facebook sosial şəbəkəsində istifadəçilər tərəfindən namizədin şəklinin paylanmasını Seçki Məcəlləsinə zidd olaraq seçkiqabağı təşviqat mərhələsinin pozulması kimi qiymətləndirərək, ona xəbərdarlıq edib. İsa Qəmbər DSK sədrinə cavab yazaraq bildirib ki, sosial şəbəkə azad bir dünyadır. Hal-hazırda dünyada təkcə facebookun milyard yarıma yaxın, ölkəmizdə milyondan yuxarı istifadəçisi var. Onlar sosial şəbəkələrdə müstəqil hərəkət edirlər və bir-birilərinin qarşısında məsuliyyət daşımırlar: Facebook sosial şəbəkəsində qeyd etdiyiniz şəklin yayılmasının mənə aidiyyəti yoxdur, sosial şəbəkədə ayrı-ayrı şəxslərin fəallığına görə mən cavabdeh deyiləm. Əgər həmin profildə seçki qanunvericiliyinin tələbləri pozulmuşsa, bu məsələ ilə bağlı facebook sosial şəbəkəsinin rəhbəri cənab Mark Zukerberqə müraciət etməyinizi məsləhət görürəm. Ona görə də xəbərdarlığınızı qanunsuz və əsassız, eləcə də mənim seçkidə iştirakıma yersiz müdaxilə hesab edirəm. Belə hallar təkrar olunacağı təqdirdə MSK-ya və məhkəməyə müraciət etməli olacağam".

Abbas Abbasovun oğlu Aydın Abbasov facebook səhifəsində elan edib ki, parlament seçkilərində namizədliyini irəli sürməmək qərarına gəlib: "Son zamanlar millət vəkilliyinə namizədliyimlə bağlı çoxsaylı zənglər və mesajlar alıram. Hər kəsə cavab vermək imkanım olmadığından, yazılı şəkildə cavab verib suallara son qoymaq istəyirəm. 10 ildir ki, aktiv siyasətdəyəm, millətimə, dövlətimə xidmət edirəm. Hər zaman da xidmət edəcəyəm. Lakin daha millət vəkili olaraq deyil. Bildirmək istəyirəm ki, bu dəfə Milli Məclisə keçiriləcək seçkilərdə iştirak etməyəcəyəm. Namizədlərin hər birinə uğurlar arzu edirəm."

Deputat Etibar Hüseynov da seçkilərdə namizədliyini vermədiyini bəyan edib: "Əziz dostum və qardaşım Ülvi Quliyevin bir sıra obyektiv səbəblərdən namizədliyini deputatı olduğum 15 saylı dairədən irəli sürməsi planlarımı dəyişdi. Etiraf edək ki, bugünkü kifayət qədər siyasiləşmiş cəmiyyətimizdə arxanda ciddi siyasi qüvvə və maliyyə rıçaqları olmadan bitərəf şəkildə seçkiyə qatılmaq və qalib gəlmək çox çətindir. Buna görə də qarşıdan gələn parlament seçkilərinə qatılmamaq qərarı verdim".

Deputat Sabir Rüstəmxanlının həyat yoldaşı, "Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlının deputatlığa namizədliyi isə qeydə alınmayıb. Bu barədə aznews.az-a T.Rüstəmxanlı özü məlumat verib. O, namizədliyinin qeydə alınmamasına görə Mərkəzi Seçki Komissiyasına şikayət edəcəyini bildirib. T.Rüstəmxanlı namizədliyinin qeydə alınmaması üçün heç bir səbəbin olmadığını vurğulayıb. Qeyd edək ki, Tənzilə Rüstəmxanlı namizədliyini 42 saylı Sumqayıt 2-ci Seçki Dairəsindən irəli sürmüşdü.

❑ **Etibar SEYİDAĞA**



# Bomba xəbər başqa, bombalı xəbər başqa...

Samir SARI

**Dostum-qardaşım, dəyərli jurnalist həmkarım Aynur Elgünəş dünən sosial şəbəkədə böylə bir status yazmışdı: "Dünya mətbuatı Putinin bombasından danışır, bizim mətbuat da Xatirənin bankasından".**

Məsələdən hali olmayanlar üçün aydıralım ki, söhbət srağagün Rusiya prezidenti Vladimir Putinin iradəsi ilə Rusiya qırıcılarının Suriyada prezident Bəşər Əsədə qarşı çıxan terrorçuların mövqelərini bombalamasından və tanınmış müğənni Xatirə İslamın soyuqlama səbəbi ilə kürəyinə küpə (öz dilimizdə desək, banka) düzülmüş halda şəklinin (və bu barədə xəbərin) internet resurslarında yayılmasından gedir.

Həmkarım da fikir verib ki, dünya mətbuatı eyzən Suriyanın bombalanmasından yazdığı halda bizdə əsas müzakirə mövzusu Xatirənin bankasıdır.

Əlbəttə, bizim mətbuat da rus qırıcılarının Suriya çöllərinə tökdüyü bombadan yazırdı, amma bu, ictimai müzakirəyə səbəb olmurdu. Çünki 4-5 ildir camaat Yaxın Şərqdən ah-vay, vur-həşir, bomba-terror xəbərlərinin gəlməsinə vərdiş eləyib. Zatən, oralardan başqa xəbər gəlmir. Amma kürəyə düzülmüş banka efirdə yeni səsdir, bu, yeni xanədəndir.

İndi qədirbilən, amma o qədər də tənqidçi olan oxucu irad tuta bilər ki, burda xəbər olası nə varı, çox adam soyuqlayanda bu cür belə küpə qoydurmaq kimi türkəçarəyə əl atır.

Amma bu başqa məsələdir axı, Xatirə sıradan biri, adi, sadə adam deyil, ünlüdür, tanınmışdır, məşhurdur, elə adamların hər bir addımı, sözü, hərəkəti xalq üçün maraqlıdır. Məsələn, adi adam yol qəzasına düşüb həlak olsa, bu, üç cümləlik sadə bir xəbərin mövzusudur, amma Xatirənin və ya Rəqsanənin maşınını küçədə dayandığı yerdə mismarla cızıblarsa, yaxud böyründən keçən naməlum avtomobil onun buferini sürtüb qaçıbsa, bu, artıq sensasion xəbərdir, saytlar, qəzetlər yazmalıdır, televiziyalar çəkib göstərməlidir. Bunlar mediada "bomba xəbər" hesab olunur.

O baxımdan banka-küpə məsələsinə heç kəs elə-belə şey kimi baxmasın. Xalqın belə xəbərlərə ehtiyacı var. İnanmırsınız, Suriyanın bombalanmasına dair xəbərin də oxunuş statistikasına baxın, Xatirənin beli bankalı şəkildə üzüquylu uzanmış halda çəkilmiş şəkliylə müşayiət olunan müvafiq xəbərə də. Bu iki xəbərin oxucu sayları arasında on qat fərq görməsəniz, gəlin, deyin ki, noutbukunu da götür get mediadan.

Dünya miqyaslı hadisələrə biganəliyimiz indinin söhbəti deyil, 100 il, 70 il qabaq da böylə olub. Məsələn, danışırlar ki, II dünya müharibəsi zamanı şair Əliağa Vahid radioda işləyirmiş və vurub gəlib oturubmuş redaksiyada. Birdən xəbər gəlir ki, Amur çayı daşıb, Yaponiya da Çinə hərbi müdaxilə edib, xəbər hazırlamaq lazımdır. Şair də bədahətən deyib ki, Amur çayı daşıbdı, su çıxıb qurşağıma, Yapon girib Kitaya, mənim nə... işimə?

İndi onun sözü olmasın, orda Putin qırır İŞİD-i, qan axıb dönüb gölə, burda küpənin vaxtı ötüb, suluqlar gəlib belə. Əsas sənətkarın xəstələnməsi və sadə bir insan olduğu üçün hamı kimi xalq təbabətindən istifadə edərək sağalmağa cəhd göstərməsidir. O da bəziləri kimi durub İsrailə, Almaniyaya getmir ki? (Hərçənd o təxəllüslə Xatirəni İsrailə buraxmazlar).

İntəhası, bir əngəl var. Hörmətli müğənnimiz bu xəbəri yayan jurnalistləri söyüb-yamanlayıb, onların ünvanına pis-pis sözlər işlədib.

Burası düz deyil. Çünki belibankalı şəkilin yayılmasının təşəbbüskarı xanım özüdür, şəklin müəllifi də hər kimsə yaxın adamıdır, bu məsələdə ilk jurnalistliyi onlar edib. Heç kəs unutmasın ki, iki cür media var: 1. peşəkar media (qəzet, sayt, jurnal, televiziya, radio). 2. Sosial media (bloqlar, sosial şəbəkələrdəki səhifələr və s.). Əgər kimsə bunların birində özünə aid nəsə yayırsa, artıq onun sonrakı tirajlanmasına yasaq qoya bilməz. Heç mümkün də deyil.

Ona görə də kimsə tumançaq şəklinin yayılmasını istəmirsə, onu instaqrama, facebook-a, digər sosial şəbəkələrdəki səhifələrə qoymamalıdır. Qoydunsa, sənin deyil artıq.

**Bu cür "kitayski" xəbərlərin çox oxunmasına gəlincə, burda bir məntiq, bir əsas var. Düzü budur ki, insanlara bankalı bel, tumansız diz daha xoş gəlir, nəinki kəsilmiş baş, tikə-parça olmuş qol-bud... Bu qədər bəsit.**

# "Nəqliyyat kralı" "taxt-tacını" xilas etmək üçün hərəkətə keçib

**Nəqliyyat naziri Ziya Məmmədovun ətrafında baş verən müəmmalı proseslər son günlər yenidən medianın əsas müzakirə mövzusunun çevrilib. Oktyabrın 23-dək "əmək məzuniyyəti" götürən nazir son aylar ilk dəfə prezident İlham Əliyevin İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin toplantısında efirdə görünüb. Müşahidələrə görə, Z.Məmmədov son dərəcə məyus görünürmüş.**



# Ziya Məmmədov müqavimətə başladı - villasında gizli toplantı

## Məmmədovların parlament seçkiləri ərəfəsində tam zərərsizləşdirilməsi indilikdə iqtidarın marağında deyil; nazirin yaxın çevrəsi isə bu vəziyyətdən itirilmiş mövqelərini bərpa etmək üçün istifadə edir; ortada isə 2005-ci ildən həbsdə olan Əli İnsanov "nümunəsi" var...

Taksilərə lisenziya verilməsinin nazirlikdən alınaraq ASAN Xidmətə verilməsi, onun himayəsində olan Bakı Beynəlxalq Avtovağzalına yeni rəis təyin edilməsi, paytaxtda sərnişin daşınmasının ondan alınması, ən nəhəng və gəlirli müəssisəsi olan "Azərbaycan Dəmir Yolları" QSC-nin müstəqil fəaliyyətə keçməsi Məmmədov klanını son dərəcə sarsıdıb. Nazirin oğlunun ölkəni tərk etməsi barədə xəbərlərə isə "Garant Holdinq" artıq 1 həftədir ki, heç bir reaksiya vermir. Maraqlıdır ki, nazir oğluna yaxın saytlar da bu məsələdə susqunluq nümayiş etdirirlər. Yeri gəlmişkən, oktyabrın 2-də "Unikal" qəzeti nazir oğlunun Qubanın Qəçrəş qəsəbəsindəki villasının yerlə-yeksan edildiyini yazıb...

"Yeni Müsavat"a daxil olan məlumata görə, Məmmədovların qürubu onun siyasi-biznes rəqiblərini də son dərəcə sevindirib. Onlar da ölkənin ən iri oliqarxına çevrilən, ailə şirkəti olan "Garant Holdinq"lə iqtisadiyyatın ən müxtəlif və həm də ən gəlirli sahələrində əsas söz sahibi olan Məmmədovların tam məğlubiyyətini səbirsizliklə gözləyirlər. İddialar var ki, hakimiyyət daxilindəki rəqibləri Məmmədovlara və onların yaxın çevrəsindəki iş adamlarına ən müxtəlif üsullarla psixoloji təzyiq göstərir, hətta mediaya onların təlaş içində olduğu, qaçmaq istədikləri, Nəqliyyat Nazirliyinin, ümumiyyətlə ləğv ediləcəyi barədə xəbərlər sızdırırlar. Bu cür xəbərlər isə Məmmədovları daha da əndişələndirir və çilədən çıxarır.

**Məsələn, artıq eks-deputat hesab olunan nazir qardaşı Elton Məmmədov çox ilginc bir açıqlama verib. E.Məmmədov deyib ki, hər bir insan hansısa vəzifəyə təyin də oluna və vəzifədən çıxarıla da bilər:** "Ziya Məmmədov bu gün vəzifəsindədir və cənab prezidentin ətrafında sədaqətlə xidmət edən nazirlərdəndir". Nazir qardaşı xüsusilə "Ziya Məmmədov vurulur" ifadəsinin üzərində dayanaraq deyib: " Kim vurulur? Ölkə rəhbərinin müstəsna səlahiyyətlərinə kimsə müdaxilə edə bilər? Ədalətli olun..."

**E.Məmmədov bəzi qurumların Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarılmasının ciddi müzakirə mövzusuna çevrilməsinə qəzəbini gizlətməyib:** "Burada nə problem var ki? Ay nə bilim filan şey ayrıldı, filan qurum çıxarıldı... Bu saat elə müvafiq icra hakimiyyətləri var ki, bütün operatorları qıraqda müəyyənləşdirir, özü mərkəzi müvafiq icra hakimiyyəti olaraq nazir paketini özündə saxlayır. Bu tədbirlər dövlətin, infrastrukturların, idarəetmə sisteminin təkmilləşməsidir".

**Məmmədovların mediada əsas müdafiəçisi və sözçüsü hesab olunan eks-deputatın bu açıqlaması əslində rəqiblərinə təslim olmayacaqları mesajdır. E. Məmmədov "kim vurulur? ölkə rəhbərinin müstəsna səlahiyyətlərinə kimsə müdaxilə edə bilər?" deməklə rəqiblərinin onları sıradan çıxarmağa güclərinin çatmayacağını, son qərarın prezidentə məxsus olduğuna açıq işarə vurub.**

Məlumatlara görə, Məmmədovlar da yaxın çevrələrinə nəqliyyat nazirinin "vurulmadığını", hətta yaxın vaxtlarda baş nazir təyin ediləcəyi barədə xəbərlər ötürürlər. Nazirin yaxın ətrafı xüsusi olaraq bu cür "xəbərləri" nazir barədə elektron mediadakı yazıların "şərhlər bölümü"ndə tirajlayırlar. İddia olunur ki, Nəqliyyat Nazirliyindəki struktur dəyişikliklərinin Z.Məmmədova təsiri yoxdur, çünki o, tezliklə baş nazir təyin ediləcək. Qeyd edək ki, yaxın vaxtlaradək Z.Məmmədovun adı həqiqətən də baş nazir postuna iddiaçılar sırasında ilk üçlükdə yer alırdı.

Məmmədovların parlament seçkiləri ərəfəsində tam zərərsizləşdirilməsi iqtidarın marağında deyil və bunun üçün uyğun zaman lazımdır. Bu səbəbdən də nazirin yaxın çevrəsi itirilmiş mövqeləri bərpa etmək üçün ciddi müqavimət göstərirlər. Belə görünür ki, nazir onun bu qədər sıxışdırılmasını qəbul edə bilmir, inciyir. Avqusta yeni məzuniyyətdən qayıdan nazirin sentyabrda yenidən "məzuniyyət götürməsi" də daha çox bu inciklikdən doğur.

Məmmədovların müqavimət göstərdiyini strateq.az-a daxil olan məlumat da təsdiqləyir. Sayt yazır ki, məzuniyyətdə olan nazir ölkəni tərk etməyib və Qazıqumlax kəndindəki malikanəsindədir. Xəbərdə iddia olunur ki, Z. Məmmədov kənddəki malikanəsində özünə yaxın iş adamlarının və yaxınlarının iştirakı ilə toplantı keçirib. Toplantının təfərrüatları bəlli olmasa da, nazirin bu görüşü keçirməklə özünə yaxın olan iş adamlarına "heç yerə getmirəm, yerimdəyəm" mesajını verməsi anlamına gəlir.

Uzun illərdir hakimiyyət daxilində ciddi siyasi və iqtisadi mövqe qazanmış Məmmədovların "müqavimət göstərmək" üçün həqiqətən də resursları var. Aydındır ki, "müqavimət" iqtidarın üzərinə "tankla" getmək deyil. Amma dirəniş göstərmək, bağ evlərində müəyyən gizli toplantılar keçirmək Məmmədovlara daha pis gələcək vəd edə bilər. Çünki ölkənin birinci şəxsinin bu cür məsələlərdə necə davrandığını elə Məmmədovlar da yaxşı bilirlər, ortada 2005-ci ildən həbsdə Əli İnsanov "nümunəsi" var...

❑ **"Yeni Müsavat"**

## Türkiyə SQ Baş Qərargah rəisinin Bakı səfərinin mühüm pərdəarxası

**Rusiya Suriyada Qərbə, Türkiyə başda olmaqla region ölkələrinə “əzələ nümayiş etdirməkdə” davam edir. Sentyabrın 30-dan başlayan və sanki dünyanın acığına müstəsna olaraq Bəşər Əsəd rejiminin xilasına yönəlik bu hərbi güc göstəricisi artıq ciddi müqavimətlə qarşılaşıb. Məsələn, aviazərbələrin 3-cü günü 7 dövlət - ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, Türkiyə, Qatar və Səudiyyə Ərəbistanı *(onların 4-ü BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvləri sırasındadır)* Rusiyanın Suriyada həyata keçirdiyi hərbi əməliyyatla bağlı birgə bəyanat imzalayıb.**



# Kremlin Suriya avantürası Azərbaycan üçün kritik seçim yaradıb

### Suriyada bombalanan həm də qardaş ölkənin strateji maraqlarıdır; ABŞ başda olmaqla 7 dövlətdən Moskvaya xəbərdarlıq gəldi; tanınmış rusiyalı ekspertdən sensasiyalı açıqlama: “Rusiya üçün dünya müharibəsi başlayıb...”

**Bəyanatda Rusiyadan Suriya müxalifətinə və mülki əhaliyə qarşı hücumlara dərhal son qoyması və İŞİD-lə mübarizəyə yönəlməsi tələb edilir:** “ABŞ, Almaniya, Birləşmiş Krallıq, Fransa, Qatar, Səudiyyə Ərəbistanı və Türkiyə hökumətləri olaraq, Rusiya Federasiyasının Suriyadakı son hərbi fəaliyyətləri haqqında aşağıdakıları bəyan edirik: Rusiya Federasiyasının Suriyada hərbi qüvvə cəmləşdirməsindən və xüsusən Rusiya Hava Qüvvələrinin dünəndən *(sragündən-red.)* bəri Hama, Hums və İdlibdə mülki əhali arasında itkilərə səbəb olan və İŞİD-i hədəf almayan hücumlarından dərin narahatlıq duyuruq. Gərginliyi artıran bu hərbi fəaliyyətlər ifrat radikalizmin daha da qızışdırılmasından başqa heç bir məqsəd xidmət etməyəcək. Rusiya Federasiyasını Suriya müxalifətinə və mülki əhliyə yönəlmiş hücumlara dərhal son qoyaraq İŞİD-lə mübarizəyə diqqətini yönəltməyə çağırırıq”.

**Xatırladaq ki, Rusiya qırıcılarının bombardmanları nəticəsində Suriyanın Hums şəhərində 36 mülki şəxsin öldüyü barədə məlumatlar yayılıb.**

***

Yaranmış vəziyyətdən ən çox narahatlıq keçirən isə təbii ki, qonşu Türkiyədir. Çünki Əsəd rejiminə qarşı döyüşən və mötədil silahlı qüvvə sayılan Azad Suriya Ordusu (ASO) bilavasitə Türkiyə və ABŞ-ın himayəsi ilə formalaşıb, ayaqda saxlanılır və bu üzdən Rusiyanın ASO-nun mövqelərini bombalaması faktiki surətdə Türkiyə və Amerikanın mövqelərini bombalamaq deməkdir.

**Bu xüsusda baş nazir Əhməd Davudoğlunun son olaylara reaksiyası diqqətçəkicidir. O deyib:** “Rusiya Suriya rejiminə müharibənin başladığı gündən dəstək verir. Boğazlardan keçən rus gəmilərinin nə daşıdığını, hara getdiyini hər kəs bilir” (axar.az).

**Baş nazir Rusiyanın Suriyada müxalifəti bombalamasının fayda gətirməyəcəyini söyləyib:** “Tartusa, Latakiyaya gedən gəmilər Suriya rejiminə dəstək üçün gedirdi. Rejimə insan amili dəstəyini İran, silahları isə Rusiya verirdi. Bunu hər kəs bilirdi. Hazırkı situasiyada yeni olan rus təyyarələrinin əməliyyatlara başlaması oldu. Rusiya ilk əməliyyatlarda ASO mövqelərini vurdu. Bu açıq şəkildə çökməkdə olan Suriya rejiminə dəstək mənasını verir. Bəşər Əsəd iyulda döyüşməyə əsgər tapmırdı. Hava gücünü də itirməyə başlamışdılar. Bu gün Rusiyanın Suriyaya müdaxiləsi doğru deyil. İŞİD-ə qarşı mübarizə onsuz da var idi. Müxalifəti yox etmək üçün aparılan əməliyyatların fayda gətirəcəyini düşünmürəm”.

***

**Gözlənildiyi kimi, bir çox ərəb dövlətləri də öz narazılıqları açıq ifadə etməyə başlayıb.** “Rusiya bütün ərəb dünyasını ayağa qaldıra bilər. Rusiyanın hədəfi İŞİD yox, Qərbin dəstəklədiyi Azad Suriya Ordusudur”. Bu sözləri isə “Şərq-Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu deyib. Politoloq Rusiyanın çox böyük bir münaqişənin içərisində olduğunu bildirib: “Rusiya Suriyaya daxil olmaq məsələsində israrlıdır. Moskva Əsəd rejimini qorumağa və Yaxın Şərqdə öz təsir dairəsini genişləndirməyə çalışır. Rusiyanın Suriya ilə birbaşa sərhədi olmadığından ancaq aviazərbələr endirir. Bunun nə dərəcədə uğurlu olacağını zaman göstərəcək. Hər halda bu, Rusiya üçün çox ciddi və riskli bir addımdır. Hətta buna görə bütün ərəb dünyası Rusiyaya qarşı qalxa bilər. Xüsusilə də nəzərə alsaq ki, Rusiya təyyarələri artıq Əsəd əleyhdarlarının mövqelərini bombalamağa başlayıb”.

**Politoloq əmindir ki, Rusiya artıq böyük bir münaqişəyə cəlb olunub:** “Belə görünür ki, Rusiyanın hədəfi, İŞİD yox, Qərbin dəstəklədiyi Azad Suriya Ordusudur. Çünki İŞİD-lə konfliktə getmək hazırda Rusiyaya bir o qədər də lazım deyil”.

***

**“Rusiya üçün dünya müharibəsi başlayıb”. Belə bir sensasiyalı açıqlamanı isə rusiyalı tanınmış politoloq Qriqori Trofimçuk özünün facebook səhifəsində edib.** “Faktiki surətdə 30 sentyabr 2015-ci ildən Rusiya və onun xalqı üçün dünya müharibəsi başlayıb - hansı ki, çoxdan, Belqradın bombalanması ilə hazırlanmağa başlamışdı və indiyədək Rusiyanın iştirakı olmadan gedirdi”.

“Bu gün - 2015-ci ildə Rusiya 2001-ci ildə Amerika torpağında tarixi serial terror aktlarından sonra olduğu kimi, beynəlxalq terrorizmlə mübarizədə ABŞ-la həmənki və olduqca təhlükəli qarşılıqlı münasibətlər sisteminə çıxmağa cəhd edir (təkrar edirəm, məhz cəhd edir). Yada sala ki, məhz bu hadisələrin nəticəsində genişmiqyaslı terror dalğası Rusiya ərazisinə adlamışdı *("Nord-Ost", Beslan və s.)* - hələ xarici dünyada baş verənləri nəzərə almasaq: bir-birinin ardınca Əfqanıstan, İraq, Liviya və s. ölkənin cəlb edilməsi. Başqa sözlə, yeni mərhələdə ABŞ-ın radikalizmə qarşı qlobal savaşına qoşulmaq Rusiya və bilavasitə onun bütövlüyü üçün daha ağır nəticələrə gətirə bilər" - qeyd edib Trofimçuk.

***

Yaranmış vəziyyət Azərbaycan üçün də keyfiyyətcə yeni situasiya formalaşdırıb. Söhbət təkcə Rusiya hərbi təyyarələrinin Azərbaycan hava məkanından istifadə eləməklə Suriyaya uçması barədə dolaşan xəbərlərdən getmir. İş ondadır ki, həmin təyyarələr Suriyada qardaş ölkənin də strateji maraqlarını, o cümlədən ABŞ-la birgə bufer zona yaratmaq planını bombardman etməyə başlayıb.

Bu mənada Rusiyanın son Suriya avantürası rəsmi Bakını da yetərincə ciddi seçimlə üzləşdirdiyini söyləmək olar. Bu barədə ötən sayımızda bəzi məqamlara toxunmuşuq. Böyük ehtimalla, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Hülusi Hakarın bazar ertəsi ölkəmizə başlayacaq iki günlük səfərində Azərbaycanda (Dağlıq Qarabağda) Rusiya sülhməramlılarının yerləşdirilməsi məsələsi ilə yanaşı, Kremlin yeni Suriya planlarında Bakının nə dərəcədə yer alması və yeni situasiyadan dolayı ortaq strategiyanın müzakirəsi əsas diqqət mərkəzində olacaq.

Tarixi təcrübə isə diktə edir ki, Azərbaycan bu kimi böhranlı situasiyaları Türkiyənin önündə yox, məhz yanında qərar tutmaqla minimal itkilərlə adlaya bilər. Azərbaycanın qardaş ölkənin yanında qərar tutmasını isə həm də vəfa borcu (1915) tələb edir.

**İstisna deyil ki, Moskvanın Suriya planlarında əsas hədəflərdən biri məhz iki qardaş ölkənin arasını vurmağa, ardınca da “bulanıq suda balığı” daha asan tutmağa hesablanıb. Yəqin ki, Bakı və Ankarada bunu artıq yetərincə anlayıblar.**

❑ **Siyasət şöbəsi**

## Əli Kərimlinin müşavirinin həbsi “söyüş yağışı”na səbəb oldu

### Məmməd İbrahimə qarşı xuliqanlıq maddəsi ilə cinayət işi başlanıldı

**AXCP sədri Əli Kərimlinin müşaviri Məmməd İbrahimə qarşı CM-nin 221-ci maddəsi ilə cinayət işi başlanıb. O, dünən axşam saatlarında barəsində sanksiya seçilməsi üçün Nərimanov Rayon Məhkəməsinə aparılıb. Lakin onun haqqında qərarın çıxarılması oktyabrın 3-nə saxlanılıb. M.İbrahimin barəsində iki aylıq həbs qət-imkan tədbiri seçiləcəyi gözlənilir.**



Məmməd İbrahim

AXCP sədrinin müşavirinin həbs olunduğu ilk günlərdən sosial şəbəkələr sözün həqiqi mənasında cəbheçilərin söyüş məkanına çevrilib.

Qurumun Kərimli qanadı AXCP-nin Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin üzvlərini açıq şəkildə təhqir edir, “işverən” adlandırır. Artıq söyüş savaşı rəhbərlik səviyyəsində davam etdirilir. Əli Kərimli səviyyəsində AXCP rəhbərləri M.İbrahimin həbsi ilə bağlı paylaşdıqları statuslarda əks tərəfi bu şəkildə aşağılayırlar.

Qeyd edək ki, M.İbrahim virtual aləmdə Ə.Kərimlin “sağ əli” hesab olunur. Təsadüfi deyil ki, narazı cəbhəçilər onu Kərimlin internet üzrə müşaviri kimi təqdim edirlər. AXCP-yə aid saxta profillərin, gizli qrupların başında birbaşa bu şəxsin dayanması ilə bağlı zaman-zaman fikirlər səslənib.

Səslənən ittihamlarla bağlı AXCP-nin Razi Nurullayev qanadının mövqeyini aldıq. Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin idarə heyətinin üzvü Ehtiram Mehdiyev müşavirin həbsini istəmədiyini qeyd etdi: “Amma o, Mikayıl Quliyevə xəsarət yetirib. Bununla bağlı həkimə də müraciət olunub. Ekspertiza xəsarət qeydə alıb. Əks tərəfdən bizə qarşı "işverən" ittihamları yağdırılır. Bu hər zaman olub. İnsanlar səhv olduqları halda, özlərinin təmizə çıxarmağı yaxşı bacarırlar. Bir neçə nəfər əxlaqsızcasına ağızlarına gələni yazırlar. Məmməd İbrahim də rəhbərlikdə Əli Kərimli, Fuad Qəhrəmanlı kimi insanların fitvasına gedir. O, mənə qarşı da bu cür hərəkət etmişdi. Göründə çalışırdı ki, qarşıdakı insanı aşağılasın. Sözlərini yeritməyə çalışırdı. Bu baxımdan inanıram ki, bu hadisə baş verib. Şər deyil. Döyülmə baş verib. Buna görə də, dostlarımız aidiyyəti orqanlara müraciət ediblər. Əsası odur ki, cəzanı yüngülləşdirmək olardı. Heç kəsin həbsini istəmirik. Onlardan fərqli olaraq, onlara qarşı biz daha mərhəmətliyik. Qoy onlar barəmizdə pis fikirləşsinlər".

**M.İbrahim tərəfindən döyüldüyünü iddia edən Mikayıl Quliyev güzəştə getməyəcəyini bildirdi:** “Məmməd İbrahimə AXCP-nin Əli Kərimli qanadının Nərimanov şöbəsinin sədri Hacı Abbaslı göstəriş verib ki, məni döysün. Bu onun sözünə əməl edərək, üzərimə gəlib. Bu birinci dəfə deyil. Bir dəfə bağışladım. Dostlarımı təhqir edib, ana-bacı söyüşləri söyüb. Ona görə də, fikrimdə qətiyəm, geri çəkilən deyiləm. Sona qədər gedəcəm. Cəzası nədirsə, almalıdır. Onun 5 saxta profilini bilirəm. Mesaj yazıb mənə. Qız adı ilə çoxlu saxta profilləri var. Üç il onun yanında olmuşam. Yaxşı tanıyıram. Kişi mənəm ki, açıq profil ilə yazıram. Kiminsə yanında xal qazanmaq üçün belə addımlar atdı. Onun yanında olan şəxslərin insanlıqları varsa, etiraf etsinlər ki, o məni vurdu, təhqir etdi. Əl qaldıra bilmədim. Şokda idim ki, qəflətən mənə niyə hücum etsin. Ona göstəriş verən Hacı Abbaslıdır. İstintaq gedir, məhkəməsi olacaq. Qanun nədir, o olmalıdır. Geri addım atmayacam”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 218 (6246) 3 oktyabr 2015



# Y.Stoltenberq vəd verməyə gəlmişdi?..

Hüseynbala SƏLİMOV

## BURADA ÜFÜQLƏR SAKİTDİRMİ?..

**Əgər MSK-nın iclaslarından seyrək şəkildə səsləndirilən informasiyalar olmasaydı adam ölkədə seçki prosesinin getdiyinə çətin inanardı. Seçkiyə artıq bir aydan bir azacıq vaxt qalıb. Amma həmişə olduğu ki, burada üfüqlər sakitdir...**

Yox, biz siyasi qalmaqalların həvəskarı deyilik. Hətta bir sual üzərində baş sındırırıq ki, görən, normal halda siyasi mövzular vətəndaşın sərbəst vaxtının neçə faizini əhatə etməlidir?..

Güman etmirik ki, normal ölkələr üçün bu, o qədər də böyük olsun. Fəqət, getdikcə bir fikir adamın beyninə daha çox hakim kəsilir və nə qədər çalışırsan, onu özündən qova bilmirsən: biz düşünməyi yadırğayırıq... Bəlkə də oxucu mənimlə razılaşmayacaq. Amma bu, elə bir fəlakət deyil... Fəlakət onda başlayır ki, insanlar hər şeylə razılaşırlar, hər şeyə qatlaşırlar...

Mən siyasi yazaram. Tez-tez siyasətdən canımı qurtarmaq üçün başqa mövzulara baş vurmağa cəhd etsəm də yenə də sonda özüm-özümə hökm verir və deyirəm ki, bəli, yazmalısan...

Ona görə də üç aspektdən baxmaq istəyirəm bu üfüq məsələsinə: müxalifət, hakimiyyət və bir də ölkə. Ən qəlizi müxalifət məsələsidir. Qorxuram bir neçə ildən sonra bu sözlə rastlaşan uşaqlarımız izahlı lüğət axtarmalı olsunlar, ya da ki, bizim yaxamızdan yapışaraq soruşsunlar ki, ata, axı bu müxalifət nə deməkdir?..

Onda biz də çox çətin sual qarşısında qalardıq. Məlum olardı ki, bu söz lüğətlərdə çoxdan arxaizmlərə aid edilib. Yox, qoy, müxalifətçilər məndən inciyib eləməsinlər. Amma mən istəmirəm ki, kiminsə onlara yazığı gəlsin... Di gəl, baxıb görürsən ki, onlar özləri bunu istəyirlər. Bəli, istəyirlər ki, hamı "Yazıqlar neyləsin?" desinlər...

Amma mənə elə gəlir ki, adam şikəstlərə və imkansızlara acımalıdır. "Yanağından qan daman" bəzi müxalifətçiləri indi mən durub necə yazıqlar dəstəsinə aid edim?

Hakimiyyətə gəldikdə isə, orada daha "dinamik" proseslər baş verir - az qala hər gün deyirlər ki, ay aman, filankəsi də aşırdılar...

Amma hakimiyyətdəki proseslərin bir xüsusiyyəti var: burada nə baş verirsə o, qapalı dairə içində baş tutur, onlar "oyunlar"ına başqalarını qatmır və başqalarına yalnız və yalnız tamaşaçı rolunu ayırırlar...

Cəmiyyət də bununla razılaşır, çünki bilir ki, hakimiyyətdə nə edirlərsə, orada nə baş verirsə, hamsı xalq üçün, millət üçün edilir...

Belə ölkədə necə yaşamayasan?!. Baxıb görürsən ki, hakimiyyətdəkilər nəfəsi də onun üçün alırlar ki, bu, xalqa lazımdır, millətə lazımdır...

Həm də görürsən ki, hakimiyyətlə müxalifətin cəmiyyətə münasibəti tamamilə assimmetrikdir: hakimiyyət yalnız xalq üçün yaşayır, yalnız xalq üçün nəfəs alır, bəzən onları hətta seçkiyə gedib səs vermək əziyyətindən də azad edirlər ki, insanlara yük düşməsin...

Müxalifət isə, əksinə, düşünür ki, cəmiyyət onlar üçün yaşamalıdır. Hətta deputat mandatlarını da gətirib onlara evlərində verməlidirlər ki, birdən bizim müxalifət gücə düşər...

Bilmirəm, mənim növbəti sarkastik-ironik cızma-qaramı onlar necə qarşılayacaq? Amma mən onların hər ikisini çox sevirəm: bizim hakimiyyəti də, müxalifəti də çox sevirəm, çünki onlar bizimkidir, heç bir yerdə belə bir müxalifət, belə bir hakimiyyət yoxdur...

Amma bu ölkənin sakit olmayan üfüqləri də var. Onlardan ən birincisi də elə bizim Qarabağdır. Təsəvvür edin ki, orada yaşayan insanlar hər gün güllə səsi, tüfəng səsi eşidirlər...

Deyirlər ki, artıq adət etmişik. Amma nə qədər adət etsələr də, yenə də çətindi.

Bunu onlar özləri deməsə də, biz başa düşməliyik...

İndi BMT-də Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətlə bağlı müzakirələr getməlidir. Bir şey gözlənirmi? Güman etmirik... Cənab Pan Gi Mun öz idarəsinin Qarabağla bağlı qəbul etdiyi sənədlərlə maraqlansaydı, çox yaxşı olardı. Amma maraqlanırmı?..

Çətin sualdır. Ümumiyyətlə, bu ölkənin problemlərinə azacıq baş vuran kimi dərhal başını tutursan ki, nə qədər qəlizdir, İlahi!..

Nə etmək olar? Görünür, bəxtimizə belə yazılıb. Əsas odur ki, bizim belə bir ayıq-sayıq hakimiyyətimiz və yamanca yatağan müxalifətimiz var...

Hakimiyyət bizi yatızdırır, özü isə işləyir... Kimin üçün işləyir? Əşi, bu, nə sualdır? Heç dəxli var?.. Əlbəttə ki, bizim üçün işləyirlər, bəli, mənim, sənin üçün işləyirlər...

O ki qaldı müxalifətə... Bəyəm müxalifət qalıb ki?.. Dedim axı hakimiyyət gecə-gündüz işləyir!..

# Hakimiyyət nə üçün müxalifəti parlamentə buraxmır...

## Arif Hacılı: "İqtidarın götürdüyü siyasi xətt ölkədə vahid mərkəzdən yönləndirilən idarəçilik sistemini daha da möhkəmləndirməkdir"

**Seçki kampaniyası başlananadək bir sıra siyasətçilərdə hakimiyyətin 1 noyabr seçkilərində real müxalifət partiyalarının təmsilçilərinin qələbəsini tanıyacağına ümid yarandığı hiss olunurdu. Ancaq seçki kampaniyası başlayandan sonra müşahidə olunan proseslər bu ümidlərin doğrulmayacağı ehtimalını artırıb.**



Seçki kampaniyasının dünən yekunlaşan birinci mərhələsi növbəti parlamentin tərkibinin necə olacağı haqda təsəvvürlər yaradıb. Artıq mənzərə xeyli dərəcədə aydındır: Milli Məclisdə real müxalifət qüvvələrinin təmsilçiliyinə bu dəfə də çox böyük ehtimalla imkan verilməyəcək. Belə görünür ki, hakimiyyət real müxalifətin parlamentdə hətta bir-iki nəfərlə belə təmsil olunmasını istəmir, sanki bunu bir təhlükə görür. Bəzi siyasətçilər hesab edir ki, bu, hakimiyyətin parlamentdə polemika, fərqli mövqe olmasını arzu etmədiyindən, bəziləri isə düşünür ki, müxalifət partiyalarının dövlət büdcəsindən maliyyə almasının qarşısının alınması üçün iqtidar Milli Məclisə müxalifət partiyalarını buraxmaq istəmir. Hətta parlamentin legitimliyi məsələsinin müsbət həll olunması naminə da olsa bir nəfər də olsun müxalifətçinin parlamentə buraxılmaması ortaya suallar çıxarır.

Bu barədə fikirlərini "Yeni Müsavat"la bölüşən **Müsavat Partiyasının başqanı Arif Hacılı**nın sözlərinə görə, bəzi opponentləri və ekspertlər yanlış olaraq hesab edirlər ki, Azərbaycan iqtidarına hakimiyyət strukturlarının legitimliyi görüntüsünü yaratmaq lazımdır: "Lakin görünür ki, hakimiyyətin buna ehtiyacı yoxdur və əslində, iqtidar demokratiya imitasiyası siyasətindən bir neçə il bundam əvvəl imtina edib. Hakimiyyət hesab edir ki, heç bir beynəlxalq qurumun və ya dünya birliyinin Azərbaycanda mövcud olan hakimiyyət strukturlarının legitimliyini tanıması zəruri deyil, onlar özləri və dəvət etdikləri müşahidəçilər bu seçkilərin nəticələrini legitim hesab edirsə, bu, kifayətdir. Ona görə də iqtidar üçün Müsavat Partiyasının, REAL və NİDA təşkilatlarının bu seçkilərdə iştirakı arzu olunan deyil. Hər vasitə ilə real müxalifət qüvvələrini seçki prosesindən kənarlaşdırmağa, bundan əvvəl keçirilən bələdiyyə seçkiləri kimi bu parlament seçkilərini də sakitliklə yola verərək, daha beş il Azərbaycanda qeyri-legitim parlamentin ömrünü uzatmaq niyyətindədir. Xüsusilə Müsavat Partiyasının seçkilərdə iştirak etməsi Azərbaycan hakimiyyətinin bu planlarına mane olur və respublika ərazisində baş verən seçki toqquşmaları, hakimiyyət strukturlarının əsəbi davranışları məhz bununla bağlıdır".

**A.Hacılı onu da dedi ki, əslində artıq Azərbaycanda çoxpartiyalı sistem mövcud deyil. Siyasi partiyaların, xüsusilə real müxalifət partiyalarının fəaliyyəti bu partiya üzvlərinin, bu partiyaya rəhbərlik edən şəxslərin şəxsi fədakarlığı, şəxsi mübarizliyi hesabına həyata keçirilir:** "Əslində normalda Azərbaycanda siyasi partiyaların bərabər siyasi rəqabət şəraitində fəaliyyət imkanları tamamilə aradan qaldırılıb. Azərbaycan parlamentinin bütün üzvləri faktiki olaraq Azərbaycan hakimiyyətinə birbaşa tabe olan şəxslərdən ibarətdir. Məhkəmə hakimiyyəti tamamilə icra hakimiyyəti strukturunun nəzarəti altındadır. Belə bir şəraitdə təbii ki, ölkədə demokratik seçkilərin keçiriləcəyi, hakimiyyətin hansısa partiyalara və hansısa ayrı-ayrı namizədlərə güzəştə gedərək onların parlamentə düşməsinin qarşısını qanun pozuntusu və saxtakarlıqla almayacağını düşünmək sadəlövhlük olardı. Azərbaycan hakimiyyətinin götürdüyü siyasi xətt ölkədə vahid mərkəzdən idarə olunan idarəçilik sistemini daha da möhkəmləndirmək və bütün sahələrdə ən xırda müstəqil davranışları belə, aradan qaldırmaq, ən adi sahələri belə tam nəzarətdə saxlamaqdır. Bu seçki kampaniyası dövründə baş verən hadisələr də məhz bu xəttin davamının təzahürüdür".

❑ **E.SEYİDAĞA**

# Müsavatın məhbus funksionerləri seçkidən kənarda qaldılar...

## Başqan müavinlərinin heç biri seçkilərə qatıla bilmədilər







**Müsavat Partiyasının noyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə bağlı irəli sürdüyü namizədlər sırasında həbsdəki başqan müavinlərinin də olması barədə məlumat vermişdik. Belə ki, 26 saylı Sabunçu Birinci Seçki Dairəsindən Tofiq Yaqublu, Lənkəran Seçki Dairəsindən Yadigar Sadıqov, 121 saylı Laçın Seçki Dairəsindən isə Fərəc Kərimlinin namizədliyi irəli sürülmüşdü.**

Onu da qeyd edək ki, Müsavat məhbusları irəli sürüldüyü dairədən, eyni zamanda, əlavə bir iddiaçı da müəyyənləşdirmişdi. Artıq imzatoplama kampaniyası yekunlaşıb. Məhbus namizədlərin imza vərəqələrinin necə doldurulması barədə maraqlandıq. Məlum oldu ki, məhbusların heç biri seçkilərdə iştirak edə bilməyəcəklər.

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı** başqan müavinlərinin seçkilərdə iştirak edə bilməmələrinin səbəblərini açıqladı: "Hər üç məhbus namizədimizin məlumdur ki, şəxsiyyət vəsiqələri özlərində deyil. Qanunvericiliyə görə, həmin şəxslərin namizəd olmaları mümkün deyil".

**Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah** qanunvericilikdə olan problemlərə toxundu: "Təəssüflər olsun ki, vicdan məhbusu olan namizədlərimizin seçki sənədlərini toplaya bilmədik. Qanunvericilikdə bununla bağlı ciddi problemlər var. İlk lazımlı sənəd şəxsin şəxsiyyət vəsiqəsidir. Həbs olunan şəxslərin şəxsiyyət vəsiqələri özlərində deyil. Cəzaçəkmə Müəssisəsi və saxlandıqları polis idarələri şəxsiyyət vəsiqələrini təqdim etməkdən imtina edirlər. Bu səbəbdən sənədləri dairə seçki komissiyalarına təqdim edə bilmədik".

**Fərəc Kərimlinin atası, onunla eyni dairədən namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülən Raqif Kərimli** bildirdi ki, seçkiyə oğlu yox, özü gedir: "Fərəcin məlum məsələdir ki, namizədliyi mümkün olmadı. Öz imza vərəqələrim yığıldı. Artıq təqdim etmişik. Amma əlavə sənədlər tələb edirlər. Bəzi problemlər yaradılır. Oktyabrın 5-də təqdim etdiyimiz imza vərəqələrinə cavab verəcəklərini deyirlər".

❑ **Cavanşir ABBASLI**

**Bu il ölkəmizdə parlament seçkiləri keçiriləcək. Ölkəmizdə, yəni Azərbaycanda. O Azərbaycan ki, seçmək hüququnu vətəndaşlarının qanı, canı bahasına qazanıb. Qazanıb ki, vətəndaş ölkəsini, əhalini idarə, qanunlara riayət olunmasına nəzarət edənləri özü seçsin. Şərqdə seçmə hüququnu ilk dəfə qadınlarına verib ki, xanımı da bərabərhüquqlu vətəndaş kimi tanınsın. Xalqı səs vermək, seçmək haqqına sahib olsun.**



**Günel İbadova**
Azərbaycan Ümid Partiyasının Ali Məclisinin Katibi

# Seçkiyə getmək nəyimizə gərək?

Hər bir vətəndaşın ölkənin idarə olunmasında iştirak etmək hüququ var. Seçki hüququ siyasi hüququnun təməlidir. Siyasi hüquqlar isə demokratik sistemin ən zəruri elementidir. Bu hüquqlar vətəndaş, cəmiyyət və dövlət arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə zəmin yaradır. Vətəndaş seçkidə iştirak etdikdə, ölkəsinə bir pay demokratiya bəxş edir. Seçkidə iştirak etməyən, vətənin taleyinə biganə qalan vətəndaş isə, dolayı yolla saxta seçkilərə şərait yaradır.

Azad və ədalətli seçki keçirilən ölkə demokratikdir. Ölkəmizdə mövcud iqtisadi, sosial və hüquq sistemi seçkinin vəziyyətindən aslıdır və onun əsasında formalaşıb. Seçki hüququna təkcə istədiyini seçmək yox həm də istəmədiyini, etimadı doğrultmayanın geri çağırılması da daxildir. Seçkiyə biganə qalmaq Qarabağ probleminə, iqtisadi problemlərə, haqsızlığa, təhsilsizliyə, mədəniyyətsizliyə, gələcəyimizə, övladlarımızın taleyinə biganə qalmaqdır.

Seçkiyə getmək nəyimizə gərək?

İlk arqumentimi, müəllifini bilmədiyim, çox bəyəndiyim bir sitatla gətirirəm.

“Pis məmurlar səsvermədə iştirak etməyən yaxşı vətəndaşlar tərəfindən seçilir”.

Siz vətəndaşsınız. Bunu hardan bilirik? Şəxsiyyət vəsiqəndə yazılan, “Azərbaycanlı” bölməsindən. Elə bilirsiz bu vəsiqə universitetə daxil olmaq, işə düzəlmək və kredit götürə bilmək üçün verilib? Əsla! Bu vəsiqə HƏM DƏ ona görədir ki, beş ildə bir keçirilən bələdiyyə seçkilərində məhəlləni idarə edəcək adamları seçəsiniz, beş ildən bir əhalinin haqlarını parlamentdə müdafiə edən millət vəkilinin kim olacağına özünüz qərar verəsiniz, beş ildən bir keçirilən prezident seçkilərində vətəninizi idarə etməyi kimə etibar edəcəyinizi siz müəyyən edəsiz!

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır (Azərbycan Respublikasının Konstitusiysı, maddə1. ) Xalq - yəni, siz, biz, sən, mən... Demir ki, hakimiyyətin mənbəyi oliqarxlar, məmurlardır. Deyir bizik. Yəni Azərbaycan xalqı.

Vətəndaşlar, siz seçkiyə gəlməyəndə biz dolayı yolla xalqın sərvətinin talanması cinayətinə kömək edirik. Hərəkətsizliyimiz, inamsızlığımız, öz haqqımızı tələb etməməklə kimlərinsə nahaqqını dəstəkləyir, kimlərinsə haqqına giririk. Olmaz! Gedək, səs verək. Bizim şəxsiyyət vəsiqəmizdəki kodlar xalqının taleyinə biganə məmurların cibinə işləməsin!

İkinci arqumentimin sitatı özümə məxsusdur.

Üç saata rahat vicdan qazanaq.

Niyə üç saat? Bir saat bələdiyyə, bir saat parlament, bir saat da prezident seçkilərinə ayırılan, yol, növbə və səs vermə zamanı. İctimai mədəniyyət (avtobusda ucadan söhbət etməmək, tumu çırtlayıb yerə tökməmək və s.) kimi, siyasi mədəniyyət anlayışı da var. Siyasi mədəniyyət, təkcə siyasi marağa sahib olmaq, daim siyasi proseslərlə maraqlanmaq, iştirakçı olmaq, mövqe bildirmək deyil. Siyasi mədəniyyət həm də vətənin, dövlətin həyat əhəmiyyətli proseslərində iştirakçı olmaqdır, yəni seçkidə iştirak etməkdir.

Bilirsinizmi, çox vaxt niyə məmurlardan haqqımızı tələb edə bilmirik?! Çünki seçmirik, səs vermirik. Səs verdiyimiz, seçdiyimiz namizədin qapısına inamla gedib sözümüzü demək şansını əvvəldən “taleyə” (oxu, seçməkdiklərimizə) həvalə edirik. Mən 2015-ci ilin parlament seçkilərinə bir ildən çoxdur hazırlaşan, müxalif olan, Ümid Partiyasından rayonlarımızdan birinə namizəd kimi qatılacağam. Müxalifət partiyasından seçkiyə qatılıb qalib gəlməyin nə qədər çətin olacağını çoxunuz güman edirsiz. Amma bir ildən çoxdur gördüyüm işə, namizəd olacağım rayonun sakinlərinə güvənirəm. Aylardır orda tanıdığım insanlara seçkidə iştirakın onlar üçün nə qədər vacib olduğunu izah edirəm. “Mənə səs verin.” demirəm, “Seçkidə iştirak edin!” deyirəm. Çünki vətəndaş olaraq, kiminsə seçmə azadlığına təzyiq etməyi doğru bilmirəm.

Əhali mənə etimad göstərib seçsə, gözləntilərini doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Məni seçməsələr belə, seçkidə iştirak etməkləri ilə hansısa mandat alıcısının yerini dar edəcəklər. İndi həmin rayonda sakinlərin çoxu bilir ki, şəxsiyyət vəsiqəsi onun haqq silahıdır. Azərbaycan, sən də bil. Qoy 125 dairədə sənin seçdiyin vəkillər millətimizi təmsil etsin.

**Ömrümüzdən üç saatını övladlarımızın daha demokratik ölkədə yaşamasına xərcləyək. Tərbiyə edərkən siyasi mədəniyyəti də aşılamağı unutmayaq. “Bala, sən vətənaşsan”, “Səni, ölkəni idarə edənləri özün seçmək hüququna maliksən”, “Hakimiyyətin mənbəyi sənsən!" demək, daha yaxşı vətəndaş böyüdər, yoxsa “Sən kimsən ki?”, “Sənin səsin heç nəyi həll etmir”, Biz quluq" demək?! Aynanın qarşışına keçib özünüzə də deyin: “Azərbaycanda hakimiyyətin mənbəyi MƏNƏM, çünki SEÇİRƏM!”**

# MSK şəhid qızına qarşı olan ədalətsiz qərarı qüvvədə saxladı

**1 noyabr 2015-ci il parlament seçkilərində imzatoplama kampaniyası artıq geridə qaldı. Bu mərhələni də Ümid Partiyası uğurla başa vurdu. Bu günə qədər Ümid Partiyasının parlament seçkilərində irəli sürdüyü namizədlərdən 14-nün deputatlığa namizədliyi qeydə alınıb. Namizədlərin imzalarının yoxlanması və namizədliklərinin qeydə alınma mərhələsi davam edir.**

Bu mərhələnin başa çatmasına bir həftə vaxt var və qarşıdakı günlərdə Ümid olan bir çox namizədlərin qeydə alınması gözlənilir. Təəssüflər olsun ki, bu mərhələdə də bəzi DSK ərazilərində partiyanın irəli sürdüyü namizədlərə süni əngəllər yaradıldı, təxribatlar törədildi, bəzi namizədlərin namizədliyini geri götürməsi üçün birbaşa və dolaysı ilə təzyiqlər edildi, namizədə imza vermiş şəxslərə təzyiqlər edildi, sənədlərin qəbulu zamanı bürokratik əngəllər yaradıldı və bəzi DSK-lar namizədlərimizlə bağlı əsassız olaraq ədalətsiz qərar çıxardı. Ümid Partiyası hələ imzatoplama kampaniyasının ilk dövründə yerli məmurların müdaxiləsi ilə bağlı bəyanatı yaymışdı. Buna baxmayaraq qeyd etdiyimiz kimi, bəzi DSK-lar qanun pozuntusuna davam edib. 38 saylı Nizami ikinci (*Gəncə*) seçki dairəsində, 43 saylı Sumqayit üçüncü seçki dairəsində, 103 saylı Gədəbəy seçki dairəsində, 26 saylı Sabunçu birinci seçki dairəsində, 27 saylı Sabunçu ikinci seçki dairəsi və başqa seçki dairələrində ciddi qanun pozuntuları və namizədlərə təzyiqlər baş verib.

Partiyanın Mətbuat Xidməti problem yaşayan namizədlərdən bir neçəsinin fikirlərini oxucularla bölüşür.

81 saylı Beyləqan seçki dairəsi Ümid Partiyası sədrinin müavini Anar İsayevin namizədliyini qeydə almamışdı. DSK-a səbəb kimi onun topladığı 700 imzadan 375-in etibarsız olduğunu göstərmişdi. Namizəd DSK-nı qərəzli və heç bir hüquqi əsası olmayan qərar verməkdə ittiham edərək, MSK-ya şikayət ərizəsi ilə müraciət etmişdi. MSK-a onun şikayətinə baxaraq ədaləti bərpa edib. Bu barədə A.İsayev özünün facebook səhifəsində yazıb.

Axşamınız xeyir dostlar! Nəhayət ki, haqq-ədalət öz yerini tapdı! 81 saylı Beyləqan DSK-nın mənim namizədliyimiin qeydə alınmasını qərəzli şəkildə əngəlləsə də bizim haqlı olduğumuzu MSK təsdiq etdi! Və artıq mən bu gündən 81 saylı Beyləqan dairəsindən deputatlığa namizədəm! Mübarizəyə davam..."

59 saylı Salyan seçki dairəsindən namizədliyi qeydə alınan Rüfət Muradlıya dolayısı ilə təzyiqlər edilsə də sonda onun namizədliyi qeydə alınıb. “7 gün 7 gecə 7 müzakirədən sonra nəhayət 7-ci gün saat 17:07-də 59 saylı Salyan seçki dairəsindən millət vəkili olmağa namizəd kimi qeydə alındım. Tanrım səbr və iradəmizi qırmasın! 550 imzadan yalnız biri etibarsız hesab olunub. İmza kampaniyasında dəstək olanlara bir daha sonsuz təşəkkürlər.”-deyə R.Muradlı bildirib.

Namizədliyi 21 saylı Nəsimi seçki dairəsindən irəli sürülmüş Günel Səfərova ilə bağlı DSK-problem yaratmışdı. Heç bir əsas olmadan onun namizədliyinin qeydə alınmaması ilə bağlı qərar verilmişdi. G.Səfərovanın şikayəti əsasında MSK məsələyə baxdı və müsbət qərar qəbul etdi.

“İki gundur sosial şəbəkədə, telefon zəngləri vasitəsi ilə və qərargahıma gelib namizədliklə bağlı sevincini paylaşan və dəstəyini verən dostlar, tanışlar sağ olun. Bu bir daha göstərir ki, insanlar gənclərə inanır güvənir və yenilik istəyir. MSK- nın ədalətli qərarına görə ekspertlər qrupu və işçi qrupuna təşəkkür edirəm. DSK tərəfindən qeydiyyatında problem yaradılan namizədlərdən bir necəsi mənim hadisəmdən daha da ümidləndilər. Uğurlar hər birimizə!” - deyə G.Səfərova bildirib.

**Ümid Partiyasının Ali Məclisi sədrinin müavini Tamilla Qulami** də haqsızlıqla qarşılaşıb. Onun deputatlığa namizədliyinin qeydə alınmasından 95 saylı Tərtər Seçki Dairəsi imtina edib.

**Bu barədə T.Qulami bildirib ki, namizədliyinin qeydə alınması üçün 450 imza tələb olunduğu halda 550 imza toplayıb:**

“95 saylı Tərtər Seçki Dairəsinin haqsız və ədalətsiz qərarı ilə namizədliyim qeydə alınmadı. Qeydə alınmamağıma səbəb kimi saxta imzaları əsas gətirdilər. Halbuki məni tanıyan, imzatoplama zamanı gedən proseslərdə şəxsən özümün iştirak etdiyimi hər kəs bilir. Absurd bir haldır ki, sənə hörmət edən, sevən, üstəlik atanı tanıyan, insanlar arasında sağ ikən, hətta indiyədək belə böyük nüfuza sahib, həmin torpağın müdafiəsi uğrunda canından keçən, Tərtərdə adına küçə olan şəhid Famil Qulaminin qızına bir rayon 450 imza verməsin. Elə tək o küçədən rahatca imza toplamaq olar. Buna baxmayaraq ən doğrusunu edib bütün daire üzrə, habelə kəndləri gəzib insanlarla tək-tək görüşərək imza toplamışam. Qərarla bağlı MSK-ya şikayət etmişik”.

**Qeyd edək ki, noyabrın 2-də Tamilla Qulaminin 95 saylı Tərtər Seçki Dairəsinin qərarı ilə bağlı şikayətinə baxıb və təəssüflər olsun ki, MSK şəhid qızına qarşı olan ədalətsiz qərarı qüvvədə saxlayıb.**

YENİ MÜSAVAT
N 218 (6246) 3 oktyabr 2015

**Milli Məclisin hazırkı tərkibinin iştirakı ilə daha iki plenar iclasın keçirilməsi nəzərdə tutulub. Bu barədə "Yeni Müsavat"a parlamentin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu məlumat verib. Xidmət rəhbərinin bildirdiyinə görə, 2016-cı il üzrə Azərbaycanın dövlət büdcəsi layihəsi 13-14 oktyabrda keçiriləcək plenar iclasın gündəliyinə daxil edilib.**



# Milli Məclisdə gərgin büdcə müzakirələri

## Samir Şərifov Cahangir Hacıyevin ciddi səhvlərə yol verdiyini dedi; gələnilki büdcə 2015-ci illə müqayisədə 4 milyard 872 milyon manat az olacaq; neft 50 dollardan götürüldü; deputatlardan bəzi dövlət qurumlarına ünvanlı sərt qınaqlar gəldi

**Bəs, hazırkı tərkibin səlahiyyətləri nə zaman başa çatır? A.Təvəkküloğlu bildirdi ki, qanuna görə, yeni tərkibin ilk iclasına qədər köhnə tərkibin səlahiyyətləri qalır:** "Seçkilərdən sonra formalaşacaq yeni tərkibin ilk toplantısı olan zaman isə əvvəlki heyətin səlahiyyətləri bitmiş sayılır".

Qeyd edək ki, oktyabrın 2-də isə Milli Məclisin İqtisadi Siyasət, Aqrar Siyasət, Təbii Ehtiyatlar və Energetika, Sosial Siyasət, Təhlükəsizlik və Müdafiə Komitələri 2016-cı il üzrə Azərbaycanın dövlət büdcəsinin layihəsini müzakirə edib. İqtisadi Siyasət Komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, Azərbaycan dünyanın bir parçası olduğundan baş verən qlobal proseslər, hadisələr ölkəmizin iqtisadiyyatına da təsir edib. "Dünyada neftin qiymətinin aşağı olması bir çox ölkələrdə olduğu kimi, Azərbaycana da təsir edib, gəlirlərimizin azalmasına səbəb olub. Bütün bunlar Azərbaycan hökumətinin dövlət büdcəsinin hazırlanmasında yeni yanaşmaları tələb edir. Azərbaycan hökuməti, respublikanın büdcə siyasəti ilə məşğul olan strukturları bunları nəzərə alaraq, öz təkliflərini verib. Bu təkliflər dünyada baş verən proseslərin təsirinin azaldılmasını ehtiva edir. Buna baxmayaraq, 2016-cı ilin dövlət büdcəsi sosial proqramların davam etdirilməsinə rəvac verir", - deyə Z.Səmədzadə qeyd edib(APA). Maliyyə naziri Samir Şərifov isə 2016-cı ilin dövlət büdcəsində sosialyönümlü tədbirlərin, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı zəruri xərclərin prioritet olaraq qaldığını bəyan edib: "2016-cı ilin dövlət büdcəsində neftin baza qiyməti 50 dollardan götürülüb. 2016-cı ilin dövlət büdcəsinin gəlirləri ÜDM-in 25,2%-i olmaqla, mütləq ifadədə 14,566 mlrd. manat nəzərdə tutulub. Bu da 2015-ci ilin göstəricisindən 4,872 mlrd. manat və ya 25,1% azdır. 2016-cı ilin dövlət büdcəsinin gəlirlərinin 46,5%-i və ya 6,773 mlrd. manatı qeyri-neft sektoru üzrə daxilolmaların payına düşəcək".

Onun sözlərinə görə, 2016-cı il dövlət büdcəsinin xərcləri ÜDM-in 28,2%-i səviyyəsində və yaxud 2015-ci illə müqayisədə 7,1 faiz-bənd azdır. 2016-cı il dövlət büdcəsinin xərcləri 16,264 mlrd. manat proqnozlaşdırılır ki, bu da 2015-ci illə müqayisədə 4,836 mlrd. manat və yaxud 22,9% az deməkdir.

S.Şərifov bildirib ki, gələn il Dövlət Neft Fondundan dövlət büdcəsinə 6 mlrd. manat transfert nəzərdə tutulur ki, bu da 2015-ci illə müqayisədə 4,388 mlrd. manat və yaxud 42,2% az deməkdir.

Qeyd edək ki, 2016-cı ilin dövlət büdcəsinin gəlirləri 14 milyard 566 milyon manat nəzərdə tutulub ki, bu da 2015-ci illə müqayisədə 4 milyard 872 milyon manat azdır.

Milli Məclisin bir neçə komitəsinin büdcə zərfi müzakirəyə edilən iclasında **deputat Vahid Əhmədov** bildirib ki, gələn ilin büdcə gəlirlərinin xərclər hissəsində 25 faiz azalma olsa da, sosial yönümlü xərclərdə azalma yoxdur, əksinə artım var.

**Modern.az xəbər verir ki, deputatın sözlərinə görə, gələn ilin büdcə layihəsində sosial yönümlü layihələr büdcənin 40 faizinə qədərini təşkil edir. İnvestisiyaya qoyulan xərclər azalıb.** "Diqqətçəkən məsələlərdən biri də neftin qiymətinin 50 dollara düşməsidir. Bunun da bir sıra səbəbləri var. İranın sanksiyalardan azad olunması, İran neftinin 2016-cı ildə dünya bazarına çıxarılması və s. Sosial yönümlü xərclərdə isə azalma müşahidə olunmur. Neftin qiymətinin aşağı olması eyni zamanda da qeyri-neft sektorunun inkişafına da səbəb olacaq.

2016-cı ildə vergi yığımında da ciddi problemlər gözlənilə bilər. Rəqəmlərdən də görürük ki, Vergilər Nazirliyi 6 ayda bu sahədə ciddi addımlar atıb, islahatlar aparıb. 2016-cı ildə dövlət büdcəsində 1 dolların məzənnəsi 1 manat 5 qəpik göstərilir. Məlumdur ki, devalvasiya nəticəsində manatın dəyəri aşağı düşdü. Bu problemlə bağlı əhali çox narahat idi və indi də vəziyyət düzəlməyib. Milli Məclisdəki büdcə müzakirələrində bir çox rəhbər şəxslər iştirak etmirlər. Mərkəzi Bank, Vergilər Nazirliyindən nümayəndələr görünmür, iclaslara laqeyd münasibət göstərirlər. Rayonlarda maliyyə idarələri icra hakimiyyətlərinin göstərişlərini yerinə yetirirlər. Korrupsiya halları daha çox aşkar olunur. Yaxşı olar ki, maliyyəyə nəzarətlə bağlı qanun qəbul edilsin və korrupsiya faktının qarşısı alınsın".

"Büdcədə neftdən gələn gəlirlərin azalması hakimiyyətin rəqiblərinin sevinməsinə səbəb olur. Ancaq buna sevinməsinlər. Neftin qiymətinin aşağı olması hakimiyyəti daha məsuliyyətli olmağa məcbur edir". Modern.az saytının məlumatına görə, bunu Milli Məclisin komitələrinin birgə iclasında 2016-cı ilin dövlət büdcə zərfi ilə bağlı aparılan müzakirlər zamanı deputat Zahid Oruc deyib. O, Azərbaycan Beynəlxalq Bankından götürülən kreditlərin qaytarılmaması məsələsinə də münasibət bildirib: "Yəni 6 milyarda yaxın bir vəsaitin yoxa çıxması necə mümkündür? Bu araşdırılmalıdır".

**Millət vəkili müzakirələrdə iştirak edən maliyyə naziri Samir Şərifova sual ünvanlayıb:** "Hansı səbəbdən heç bir girov olmadan Azərbaycan Beynəlxalq Bankı müəyyən sahənin adamlarına iri məbləğdə kreditlər verilib? Halbuki, sadə vətəndaşlara adi kredit verəndə həmin bank kredit məbləğindən az qala üçqat artıq girov tələb edib".

**Millət vəkilinin sualına cavab olaraq S. Şərifov deyib ki, Azərbaycan Beynəlxalq Bankının sabiq rəhbərliyi tərəfindən ciddi səhvlərə yol verilib**: "Bu səbəbdən əvvəlki rəhbərlik tutduğu vəzifədən kənarlaşdırılıb. Hazırda bəzi edilən əməllərə hüquqi qiymət verilməsi üçün hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır. Düzdür, bankın keçmiş rəhbərliyi təminat olmadan riskli layihələrə imza atıb. Beynəlxalq Bank Azərbaycan Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş tələblərə əməl etməyib. Lakin bu bank Qafqazın ən iri bankıdır. Orada əhalinin böyük məbləğdə əmanətləri var. Bu bankın sistem əhəmiyyətli olması nəzərə alınaraq, ölkə başçısı Azərbaycan Beynəlxalq Bankının sağlamlaşdırılması üçün Fərman imzaladı. Hazırda problemli aktivlərin idarə olunması ilə başqa qurum məşğuldur".

**Deputat AZAL-ın özəlləşdirilməsi təklifini də səsləndirib:** "AZAL-la bağlı demək istəyirəm ki, bu quruma dotasiyalar ayrılır. Amma artıq AZAL özəlləşdirilməlidir. Bu gün hər kəsə bəllidir ki, istər dövlət, istərsə də özəl sahədə səhiyyə xidmətləri pulludur. Bunların özəlləşdirilməsi xəstələrin ora müraciət etməsinə və yaxud da tibb xidməti almasına məcbur etməyəcəkmi? Xəstəxanalara da pul ayrılır, amma onlar da özəlləşdirilsə, daha yaxşı olar. Çünki dövlət xəstəxanaları bütün tibbi avadanlıqlarla təmin olunsa da, onlardan dövlətə heç bir xeyir yoxdur".

**Milli Məclis üzvü Azərbaycandan kiçik olan ölkələrə, o cümlədən Gürcüstana 5 milyondan çox turist gəldiyini də diqqətə çatdırıb:** "Amma bizdə turistlər gətirdikləri vəsaitin 70 faizini otellərə qoyub gedirlər. Bu səbəbdən də turistlər ölkəmizə gəlmək istəmirlər. Deməli olar ki, otellərimizdə qiymətlər çox bahadır. Kiçik və orta sahibkarlıq inkişaf etdirilmir. Təbii ehtiyatlarla zəngin olan bir ölkəyə turistlərin gəlmək istəməməsinin başlıca səbəbi məhz turizm xidmətlərinin baha olmasıdır".

❑ E.PAŞASOY

# "Şərurlu İsfəndiyar"a 2,7 milyon manat "atıb"lar

## İsfəndiyar Axundov: "Mən belə şeylərdən danışmaq istəmirəm"

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən 1984-cü il təvəllüdlü Araz Eyvazovun cinayət işi üzrə prosesi keçirilir. A.Eyvazov külli miqdarda ziyan vurmaqla dələduzluqda ittiham olunur.**



Onun qurbanları sırasında məşhur iş adamı, "Şərur-İnşaat" şirkətinin rəhbəri İsfəndiyar Axundov da var.

Redaksiyamıza daxil olan məlumata görə İ.Axundovun qardaşı oğlu Eldəniz Axundov 2012-ci ildə ondan iş qurmaq üçün borc alıb. E.Axundov isə həmin məbləği hazırda məhkəmə qarşısına çıxarılan Araz Eyvazova verib. Lakin vəd oluunan iş görülməyib. İş üzrə zərərçəkən qismində Şərur Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Rəfail Rəsulovun oğlu Orxan Rəsulovun da adı keçir. Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən son prosesdə zərərçəkən Eldəniz Axundov ifadə verib. Report.az-ın məlumatına görə E.Axundov ifadəsində ona dəyən ziyanın ödənilməsini istəyib: "Araz xaricdən Azərbaycana mallar gətirirdi. Arazla iş qurmaq üçün ona 2 milyon 700 min dollar nəğd pul vermişəm. Məhkəmədən bu məbləğin mənə ödənilməsinin təmin edilməsini istəyirəm". Prosesdə digər zərərçəkən - Şərur Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Rəfail Rəsulovun oğlu Orxan Rəsulov da iştirak edib. Hakim ondan təqsirləndirilən Araz Eyvazova verdiyi 370 min dollar pulun sənədlərini gətirib-gətirmədiyini soruşub. O.Rəsulov isə sənədləri gətirmədiyini deyib. Məhkəmənin növbəti iclası oktyabrın 7-nə təyin edilib. İttiham aktına görə A.Eyvazov 2012-ci ildə hazırda iş üzrə adları zərərçəkən kimi keçən şəxslərdən iş qurmaq adı ilə bir neçə milyon manat alıb. Lakin vədini yerinə yetirməyib və aldığı pulları da geri qaytarmayıb. Məsələ ilə bağlı 1 il ibtidai istintaq aparılıb və məhkəməyə göndərilib. Sonradan ittiham aktından olan qüsurlara görə iş geri qaytarılıb və qüsurlar aradan qaldırılaraq yenidən məhkəməyə göndərilib.

"Yeni Müsavat" əməkdaşı "Şərurlu İsfəndiyar" kimi tanınan İsfəndiyar Axundovla əlaqə saxlayaraq ondan baş verənlərə münasibət öyrənib. İ.Axundov deyib ki, qardaşı oğlu ilə aralarında olan münasibətlərə, ona borc verib-verməməsinə aydınlıq gətirmək istəmir: **"Mən belə şeylərdən danışmaq istəmirəm. Məhkəməyə verib, görək axırı nə olur".**

Qeyd edək ki, A.Eyvazov Cinayət Məcəlləsinin 178.3.2 - dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə maddəsi ilə ittiham olunur.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 218 (6246) 3 oktyabr 2015

# “Bakı Gömrük İttifaqına qoşulmaq istəmir”

## Mehman Əliyev: “Biz heç yerə getmək istəmirik, çünki hara getsək, bizdən şəfafflıq tələb edəcəklər”

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov “Sputnik” agentliyinə açıqlamasında Azərbaycan və Avrasiya İttifaqı ilə bağlı məsələ ilə əlaqədar təəccüb doğuran fikirlər səsləndirib. Belə ki, XİN rəhbəri Azərbaycanın Avrasiya İttifaqına üzv olmasını istisna etmədiyini bildirib. “Heç zaman heç zaman demə” söyləyən E.Məmmədyarovun bu açıqlaması elə ilk andan ciddi müzakirələrə səbəb olub.**



Qeyd edək ki, Azərbaycanın hakim komandasında E.Məmmədyarov prezidentdən sonra ilk qərbpərəst rəsmi şəxs kimi tanınıb. Onun fəaliyyəti boyunca Qərbə istinad etməsi, həmçinin Amerika və Avropadakı dairələrlə normal əlaqələri fonunda qəfildən üzünü şimala çevirməsi suallar doğurub. Hətta belə olan təqdirdə rəsmi Bakının Qərblə konfrantasiya şəraitində üzünü birmənalı şəkildə Rusiyaya çevirdiyi və Avrasiya Birliyinə qoşulmağa qərar verdiyi barədə iddialar səslənir. Hətta müstəqilliyimizin təhdid altında olduğunu deyən bəzi ekspertlər milli müqavimət hərəkatının yaradılması zərurətindən bəhs edirlər.

**“Turan” İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** isə XİN başçısının qərbpərəst olması fikrini qəbul etmir: “Mən hesab etmirəm ki, Elmar Məmmədyarovun mövqeyi hansısa formada dəyişib, həmçinin onun Qərbpərəst və yaxud şimalpərəst olduğunu güman etmirəm. Siyasi nöqteyi-nəzərdən vəziyyətə baxsaq, hökumətdə şəxsi hansısa istəklər ola bilər. Məsələn, kimsə Rusiyanı, başqaları Amerika, Fransa, ya İranı sevə bilər. Amma dövlət siyasətində hansısa bir meyllilik heç vaxt müşahidə olunmayıb. Ritorika formasında bəli, Amerika, Türkiyə, İranla, Rusiya, Gürcüstanla strateji əməkdaşlıq etdiyimiz bildirilib. Belə çıxır ki, biz hamı ilə strateji əməkdaşlıq edirik. O strateji əməkdaşlıq da daha çox Azərbaycan hakimiyyətinin maraqları nöqteyi-nəzərdən görünür. Açıq və ya qapalı təzyiqlər olanda hakimiyyət ilk növbədə öz maraqlarını, öz mövqelərini müdafiə etməyə başlayır. Konkret olaraq Qərblə bağlı vəziyyətə baxsaq, Qərbdən demokratik islahatların aparılması, qəbul olunan öhdəliklər və prinsiplərin yerinə yetirilməsi ilə bağlı çağırışlar güclənəndə Azərbaycan hakimiyyəti bunu öz mövqelərinin zəifləməsi kimi görür və Rusiya tərəfə üz tutur. Rusiya şimaldan təzyiq edəndə isə Azərbaycan üzünü Amerikaya tərəf tutur. Yəni həmişə maraqlar nöqteyi-nəzərindən hərəkət edilir. Ona görə də Məmmədyarovun qərbpərəst kimi təqdim olunması düzgün deyil. Hakimiyyətdə şəxsi maraqlar daha çox öndədir və dövlət maraqları istismar olunur, hətta milli maraqları şəxsi maraqlar prizmasında görürlər”.

**M.Əliyev Azərbaycanın müstəqilliyinin təhdidlə üz-üzə olması barədə iddiaları qəbul etmir və odur ki, ölkədə milli müqavimət hərəkatı kimi hansısa bir qurumun yaradılması, demokratik qüvvələrin bir araya gələrək müstəqilliyimizin müdafiəsi üçün hansısa addımların atılmasına da zərurət görmür:** “Məncə, buna zərurət yoxdur. Çünki bu vaxta qədər belə söhbətlər olub. Əgər biz keçmiş SSRİ respublikalarını götürsək, onlardan heç biri öz müstəqilliyini itirməyib. Azərbaycandan da xeyli zəif ölkələr var ki, heç nə itirməyiblər. Bu, o deməkdir ki, Azərbaycanın müstəqilliyinin itirilməsi bu gün heç kəsin marağında deyil. Yəni bu, 1985-ci ildən, Malta danışıqlarından başlayaraq razılaşdırılmış bir prosesdir”.

**M.Əliyev deyir ki, Azərbaycan Gömrük İttifaqına qoşulmaq üçün gömrük siyasətində hələ xeyli dəyişiklər etməlidir:** “Azərbaycanın digər ölkələrlə gömrük münasibətlərinin hamısında ikili mühasibatlıq var. O tərəf ticarət dövriyyəsi ilə bağlı bir rəqəm verir, Azərbaycan başqa şeylər deyir. Yəni Azərbaycan gömrüyü informasiyaları gizlədir, düzgün vermir. Xeyli keçən malların həcmi düzgün göstərilmir. Bu halda hansı əməkdaşlıqdan söhbət gedə bilər? Ona görə də biz Ümumdünya Ticarət Təşkilatına daxil olmaq istəmirik. Biz heç yerə getmək istəmirik, çünki hara getsək, bizdən şəfafflıq tələb edəcəklər. Hakimiyyət heç nə istəmir, çünki onun apardığı iqtisadi siyasət və sair ikili mühasibatlıq əsasında gedir, statistika düzgün deyil. Belə təşkilatlara görə girmirlər ki, öhdəlik götürməsinlər. Mən Putinin sonuncu Bakı səfəri zamanı təəccübləndim. O dedi ki, Rusiya - Azərbaycan ticarət dövriyyəsi 4 milyarda çatıb. Mən təəccübləndim ki, axı bizim Gömrük Komitəmiz 2 milyard olduğunu bəyan edir. Araşdırma apardım və gördüm Rusiyanın Gömrük Komitəsi 4 milyard ticarət dövriyyəsinin olduğunu xəbər verib. Deməli, 2 milyard gizlədilib! Belə olan halda harasa daxil olmağa maraq olmur. Odur ki, bunlar hamısı ritorikadır, danışırlar, deyirlər, lakin hər yerdən qaçırlar. Lakin artıq vaxt daralır, ona "gəl, qoşul" deyib tələsdirirlər. Ancaq Azərbaycan bu ittifaqlara qoşulmayacaq".

**Bəzi iddialara görə, Bakı Qərbdən əlini üzdüyü üçün Qarabağ məsələsinin həllinin qarşılığında Rusiyaya güzəştə gedəcək.**

**Politoloq Şahin Cəfərli** isə fərqli düşünür. Ekspertə görə, hətta problemin Ermənistanı xeyrinə həll olunması da Moskva üçün sərfəli deyil: “Çünki münaqişənin qalması Rusiyanın da bu bölgədə qalmağa davam etməsi anlamına gəlir. Başqa bir vacib məqam kimi Ermənistanda Rusiyaya bağlı siyasi iqtidarın iş başında olmasının Moskva üçün önəmini də qeyd etməliyik. Azərbaycanın cəbhədəki qələbələri Ermənistanda ciddi destabilizasiya yarada və bu ölkə daxilində sözünün əsl mənasında aranın qarışmasına səbəb ola bilər. Bu qarışıqlıq Sərkisyan rejiminin devrilməsi ilə nəticələnə bilər ki, bu durumda Rusiyaya bağlı olmayan, hətta Qərbyönlü qüvvənin Ermənistanda hakimiyyətə yiyələnməsi ehtimalı oraya çıxacaq. Moskva belə bir durumun yaranmasını əlbəttə ki, istəməz. Ona görə də Qarabağ cəbhəsində Sərkisyan rejiminin sonunu gətirəcək səviyyədə dəyişikliyə Moskvanın xeyir-dua verəcəyinə inanmıram”.

**Ş.Cəfərli müstəqilliyimizə yönəlik təhdidi real saymır:** “Azərbaycan hakimiyyətinin ölkənin müstəqilliyinə təhlükə yaradacaq güzəştlər - məsələn, ölkə ərazisində Rusiyanın hərbi obyektinin yerləşdirilməsi, Avrasiya İqtisadi İttifaqı ilə inteqrasiyanı nəzərdə tutan hansısa sənədə imza atılması, avroatlantik inteqrasiyadan imtinanın yuridik təsbiti kimi Rusiya lehinə strateji seçim anlamına gələ biləcək addımlar atılması hesabına Moskva ilə anlaşması həm ölkə daxilində etiraz dalğasının yaranmasına, həm də Qərbin rəsmi Bakıya basqılarının artmasına səbəb ola bilər. Onu da nəzərə almaq lazımdır ki, Rusiya Azərbaycanın müəyyən şərtlər daxilində bəzi rayonları geri almasına şərait yaratmaq variantına gedəcəyi təqdirdə belə, ümumilikdə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həll olunmasına imkan verməyəcək”.

❑ **Cavid TURAN**

# Qan ağlayan Yaxın Şərq



**Azər RƏŞİDOĞLU**

**Rusiyanın Suriyaya hərbi müdaxiləsi bölgədəki vəziyyətin acınacaqlı olmasını bir daha üzə çıxartdı. Yaxın Şərqdə demokratik təsisatların yoxluğu, vətəndaş cəmiyyətlərinin və sekulyar müxalifətin formalaşmaması ona gətirib çıxartdı ki, bölgədə qanlı vətəndaş və məzhəb savaşları alovlandı. Uzun illər ölkələrində inkişafa yönəlik bircə addım belə atmayan ərəb ölkələri liderləri özləri ilə yanaşı ölkələrini də məhv etdilər.**

Neçə müddətdir ki, Yaxın Şərq ölkələrində belə bir fikir formalaşdırılıb ki, “dahi öndər”, “dəmir əl” olmasa daxili çəkişmələr baş alıb gedər. Deməli, belələrinin hakimiyyəti daimi olmalıdır, yoxsa, ölkədə qan tökülə bilər. Amma bunu deyənlər unudurlar ki, tək bir hakimiyyət - Allahın hakimiyyəti daimi olur, qalan hakimiyyətlər isə gəldi gedərdi, hətta diktatorların da ağalığına son qoyulur.

Gəlin, bu “dahi öndər”lərin diktatorluq etdiyi ölkələrə nəzər eləyək. Bu ölkələrin hər birində istehsal tam dayanıb. Bölgə təbii sərvətlərin, narkotika, silah və qadın alverinin hesabına yaşayır. Yox, bu “sərvətlərdən” ölkə əhalisi bəhrələnmir. Bu, diktatorların bazarıdır, onların “şəxsi mülkiyyətidir”.

Budur diktatorların əsil siması. Bu despotlara qarşı çıxmağa isə Yaxın Şərqdə az qala ümummilli bəlaya çevrilən tənbəllik və düşüncələrə hakim kəsilən mühafizəkarlıq imkan vermirdi. Cəmiyyətin inkişafının tam qarşısını alan belə meyllərin islam dininə bir aidiyyəti yoxdur. Hətta birmənalı “ərəb layihəsi” belə deyil. Bu, hər cür təşəbbüsdən məhrum edilmiş cəmiyyətin simasıdır. Uzun müddət bu diktatorları bəsləməklə ABŞ məhz “islam bu qədər anti-insanidir” fikrinin düşüncələrə hakim olmasına çalışıb.

Yaxın Şərq ölkələrinin korrupsiyaya uğramış liderlərinin başı tək öz xalqlarını qarət etməyə qarışmayıb, onlar həm də bir-biri ilə çəkişməklə məşğuldurlar. Odur ki, bu bölgə həmişə “barıt çəlləyini” xatırladıb.

Göründüyü kimi, sivil ideologiyaya söykənməyən siyasi xadimlərin sonu acınacaqlı olur. Bunu indi həyatda yaşayan diktatorlar da dərk etməlidirlər. Diktatorlar ayrı-ayrı ölkələrdə yaşasalar da, ayrı-ayrı ənənələri daşısalar da, hamısı bir-birilərinə bənzəyir. Demokratiyanın vətəni olmadığı kimi, diktatorların da vətəni olmur. Onları ancaq qaniçən və insanlığa nifrətlə dolu olan əməllərindən tanımaq olar. Dünyanın hər yerində insanlar ölkələrini illərdir dəmir yumruqla idarə edən diktatorların devrilməsinə sevinir. Ümumbəşəri dəyərləri məhdudlaşdıran, onları hər addım başı pozan liderlər yalnız öz ölkələrində deyil, dünyanın dörd bir yanında bir eyni adla tanınır.

Təbii, həyatda olan tiranları da digər despotların taleyi gözləyir. İnsan haqlarına düşmən kəsilən tiranlar Allah və tarix qarşısında gec-tez cavab verməli olublar. 20-ci əsrin məşhur diktatorlarının bəzilərinin taleyinə nəzər salınası, öyrənilməsi və ibrət alınası tarixdir. Bu, insanları zombiləşmiş kütləyə, sürüyə çevirənlərin tarixidir. İkrahdoğurucu olduğu qədər də, öyrənməyə məhkum olduğumuz tarixdir.

**Bu gün dünyada diktatorlar yıxılır. Lakin onlarla bərabər ölkələri də yıxılır. Bu gün Avropa ölkələri inkişaf edib. Əhalisi yüksək imtiyazlarla təmin edilib, Yaxın Şərq əhalisi isə dilənçi vəziyyətindədir. Normal seçki, siyasi və iqtisadi islahatlar olmayan yerdə ölkənin sonu elə Suriya kimi olur...**

YENİ MÜSAVAT
N 218 (6246) 3 oktyabr 2015

AZƏRBAYCAN RESPUBLİKASI
MTRŞ
MİLLİ TELEVİZİYA VƏ RADİO ŞURASI

# MTRŞ veriliş qapada bilərmi?

## Milli Məclis qurumun səlahiyyətlərini artırıb: telekanal narazıdır, reallıq isə...

**Xəbər verdiyimiz kimi, Milli Teleradio Şurası ANS-in efirində yayımlanan "Səni axtarıram" verilişinin qapadılması ilə bağlı qərar verilib. Artıq bununla bağlı hər iki tərəf - qurum və telekanal müvafiq açıqlama, müsahibə yayıb. Amma yenə də məsələnin hüquqi tərəfləri maraqlıdır - qurumun belə bir səlahiyyəti varmı? Qanunvericilik bu barədə nə deyir?**

Müqayisə aparaq. Türkiyədə fəaliyyət göstərən Radyo Televizyon Üst Kurumunun (RTÜK) təcrübəsində hansısa verilişin tamamən qapadılması yox, telekanala xəbərdarlıq, verilişin, hətta kanalın bir neçə günlük öz fəaliyyətini dayandırması təcrübəsi olub. Bundan başqa, RTÜK səviyyəsində hansısa verilişlə bağlı kanala ciddi xəbərdarlıq edilməsi halları da olub. Cəza almamaq üçün verilişin qapadılması və ya formatda dəyişiklik edilməsi də telekanalın öz qərarı olub.

"Çox təəssüf ki, indiyə qədər verdiyimiz tövsiyələr nəticə verməyib. Azərbaycan efirindəki sünilik, bayağılıq, şitlik, saxta ssenarilər, ailədaxili münaqişələrin həddən artıq şişirdilməsi insanların heysiyyətinə toxunulması, milli-mənəvi dəyərlərin çox aşağı səviyyədə olması ilə bağlı olan verilişlər aradan qaldırılmalıdır. Biz düzgün yoldayıq".

APA-nın məlumatına görə, bunu Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli deyib.

**N.Məhərrəmli bildirib ki, MTRŞ bu məsələdə israrlıdır**: "Ona görə də hər hansı televiziya kanalına qarşı indiyə qədər olan güzəşt limiti artıq bitib, belə verilişlərin bağlanması davam etdirəcəyik".

**Həmin verilişlərin reytinqinə gəlincə, N.Məhərrəmli bildirib ki, hələ bu məsələdən çıxış yolu tapa bilməyiblər**: "Amma bunun üzərində işləyirik. Çünki reytinq ölçən təşkilatlarla bağlı iş çox şübhə doğurur. Hansı insanların evlərində reytinq ölçən cihazların - "peoplemeter"lərin olduğu şübhəlidir. Ona görə də bu məsələ barədə düşünürük. Çalışacağıq ki, rəqəmsal yayıma tam keçiddən sonra bu məsələni həll edək".

**Verilişlərin bağlanmasına görə ANS və digər telekanallar tərəfindən MTRŞ-in məhkəməyə verilməsinə gəlincə, N.Məhərrəmli məhkəmədən qorxmadıqlarını vurğulayıb**: "Biz qərarlarımızı hüquqa uyğun veririk. İstənilən şəxs bizi məhkəməyə verə bilər, biz buna hazırıq. MTRŞ Azərbaycan efirində baş verən prosesləri tənzimləyən, qərar verən qurumdur".

**ANS-in vitse-prezidenti Mirşahin Ağayev** isə anspress.az-a açıqlamasında bu qərarla bağlı maraqlı fikirlər açıqlayıb. Deyib ki, bu qərarı, daha doğrusu qərarın mətbuatda bu şəkildə afişalandırılmasını gözləmirmiş: "Ona görə ki, MTRŞ-nın toplantısında mən iştirak edirdim. Nuşirəvan Məhərrəmli başda olmaqla Şura üzvlərinin "Sən Tək deyilsən!" və "Xoşqədəmlə axtarıram səni" verilişinin aqibətinə münasibəti mənə elə ilk dəqiqədən bəlli idi. Təxminən 1 saat yarım ərzində mən onları dinlədim və sonda məlumat verdim ki, biz onsuz da bu verilişi gələn həftə, daha doğrusu, oktyabrın 5-dən efirdən çıxarmışıq. Bu layihələri biz efirdə yalnız ona görə saxlamışdıq ki, həmin efir vaxtında oxşar layihə ilə rəqabət zərurəti var idi. Onu da deyim ki, MTRŞ-da bizim belə bir mövqeyimizdən hələ çoxdan xəbərdar idilər ki, belə verilişləri bəyənmirik və bu tipli layihələri etməmək üçün televiziya rəhbərlərinin vahid mövqeyi olsa faydalı olar. Əks təqdirdə bir kanal bu tip layihəni bağlayanda, başqası açır, nəticədə standartlar bir olmur. Sentyabr ayının 29-da ATV-də "Öz aramızda" verilişi bağlanandan dərhal sonra isə biz Yaradıcılıq Şurasının qərarı ilə "Sən Tək deyilsən!" verilişini dayandırdıq. Elə "Xoşqədəmlə axtarıram səni" verilişi də bazar günü efirdə ənənəvi formatında son dəfə yayımlanacaqdı. Müəllifin təqdim etdiyi yeni layihəyə görə, burada axtarılacaq şəxslər həm də Azərbaycanı dünyada müsbət mənada tanıdan, ona şərəf və nüfuz gətirən insanlar olacaqdı. Özü də bu qərar elə yaradıcı kollektiv tərəfindən verilmişdi. Mən onu da qeyd etdim ki, efir məkanıda daha ciddi ab-havanın yaradılması məqsədilə ANS MYMŞ yeni layihələr hazırlayıb. "Günəbaxan"ın formatı tam dəyişdirilib, o indi demək olar ki informativ tok şoudur. "A-dan Z-yə" və "ŞOKolad" verilişi artıq dayandırılıb. Burda adlarını çəkmirəm, yaradıcılıq sirridir. Amma orda efirə gedəcək yeni layihələrimizin adlarını belə çəkdim. Yəni mən bunları deməklə diqqəti ona yönəltdim ki, ANS MYMŞ-nın öz verilişlərini bağlamaq qərarını MTRŞ-nın rəsmiləşdirməsinə ehtiyac yoxdur. Sadəcə olaraq, burda bir məqam var idi: MTRŞ istəyirdi ki, verilişlər dərhal qapansın, mən isə onları soyuq ağıla və məntiqə dəvət edərək bu fikirdən daşındıra bildim. İzah etdim ki, verilişlərin kifayət qədər tamaşaçısı var, yüksək reytinqləri var, ona görə də biz onları bağlamaq qərarını verərkən ilk növbədə bu məqamı nəzərə almışdıq, yəni ən azı müraciətləri araşdırılmağa qəbul olunmuş insanlara hörmətsizlik etməyək, verilişi dəstəkləyənlər qarşısındakı öhdəliklərimizin aqibəti barədə düşünək. Onlar da qısa müzakirədən sonra mənimlə razılaşdılar. Mən toplantının əvvəlindəki gərginliyin, ittiham aqressiyasının sona yaxın səmimiyyətə doğru dəyişdiyini hiss etdim və düşündüm ki, bu, Nuşirəvan Məhərrəmli və hörmətli Şura Üzvlərinin mənimlə sıradan bir görüşüdür və tədbirdən məlumat sızdırılarkən bu ab-hava qərarda öz əksini tapacaq. Çünki Şura Üzvləri arasında ANS-ə, onun rəhbərliyinə, olan hörmət və sayğının nümayiş etdirilməsi mənə belə düşünməyə əsas verirdi. Çünki oxşar söhbət ATV kanalı ilə də olmuş, amma onların layihəsinini bağlanması barədə verdikləri adi qərar bizimlə bağlı məsələdən fərqli olaraq az qala ittiham aktı kimi ictimailəşdirilməmişdi. Baxmayaraq ki, belə qərarlar qəflətən verilmir, ən azı əvvəlcədən xəbərdarlıq edilir".

Xatırladaq ki, telekanal məlum qərarla bağlı məhkəməyə müraciət edəcək.

Bəs qanunvericilik nə deyir? MTRŞ-in səlahiyyətlərinə nələr aiddir? Bu ilin fevral ayında "Televiziya və radio yayımı haqqında" qanunun 16-cı və 23-cü maddələrinə dəyişikliklər edilib. Qanunun 16-cı maddəsində "məhkəmə qarşısında iddia qaldıra bilər" sözləri "teleradio yayımı sahəsində müvafiq dövlət orqanına müraciət edir" sözləri ilə əvəzlənib. MTRŞ-ın səlahiyyətlərinin artırılmasını nəzərdə tutan bu dəyişiklik o deməkdir ki, mövcud qanunvericiliyə əsasən məhkəməyə müraciət daha çox olurdu, lakin indi təklif edilən varianta əsasən məhkəmə qarşısında iddia qaldırmaq məsələsi çıxarılır, teleradio yayımı sahəsində müvafiq dövlət orqanına (MTRŞ) müraciət olunur.

**23.1-ci maddəyə təklif olunan dəyişikliyə görə, teleradio yayımçıları xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərini və bu qanunun tələblərini pozduqda xüsusi razılığın (lisenziyanın) qüvvəsi və ya hər hansı proqramın yayımı teleradio yayımı sahəsində müvafiq dövlət orqanının qərarı ilə bir ayadək müddətə müvəqqəti dayandırılır. Hazırda qüvvədə olan maddəyə görə isə teleradio yayımçıları xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərini və bu qanunun tələblərini pozduqda razılığın (lisenziyanın) qüvvəsi məhkəmənin qərarı ilə bir gündən yeddi günədək müvəqqəti dayandırıla bilər.**

❑ **Sevinc TELMANQIZI**

# Maliyyə Nazirliyi yanan bina ilə bağlı məlumatları niyə gizlədir?




**Binəqədidə yanan binanın sakinləri 4 ay sonra mənzillərinə köçə bildilər. Ötən 4 ay ərzində Maliyyə Nazirliyindən yanan bina ilə bağlı sorğumuza cavab ala bilmədik. Baxmayaraq ki, Maliyyə Nazirliyinin mətbuat katibi, informasiya azadlığı üzrə məsul şəxs Mais Piriyev müvafiq araşdırmalardan sonra sorğumuza mayın 29-da cavab verəcəklərini bildirmişdi...**

Bu il mayın 19-da baş vermiş məşum yanğın bütün ölkənin diqqətini həmin binaya yönəltdi. Hamını bir sual düşündürürdü - 16 mərtəbəli binanın 10-15 dəqiqə ərzində kibrit kimi yanmasının səbəbi nədir?

Az keçmədi ki, hüquq-mühafizə orqanları yanğının sürətlə genişlənməsinin, yayılmasının səbəbini göstərdi - binanın üzlüyündə istifadə edilən poliuretan adlı kimyəvi tərkibli material!

Bu gün həmin materialı binaya vuran iş icraçıları həbsdədir. İcraçılara işi sifariş edən, işlərin keyfiyyətlə görülməsini nəzarət edənləri isə hələ də axtarırlar.

*Bəs həmin materialın alınması hansı hesabdan həyata keçirilib?*

Qəzetimizin oxucuları bilirlər ki, "Yeni Müsavat" bu və digər suallara aydınlıq gətirilməsi üçün yanğından 3 gün sonra Maliyyə Nazirliyinə informasiya sorğusu ilə müraciət edib.

**Həmin sorğunun məzmununu təqdim edirik:**

- Bildiyiniz kimi, mayın 19-da Binəqədi rayonunda poliuretan üzlüklü bina yandı, nəticədə 15 nəfər dünyasını dəyişdi, 56 nəfər isə xəsarət aldı. Prezident yanında Dövlət Komissiyasının iclasında binanın üzlənməsi ilə bağlı müxtəlif fikirlər səsləndirildi. Binanın daha keyfiyyətsiz materialla üzlənməsi haqda da danışıldı.

**Sizdən xahiş edirik ki, aşağıdakı suallarımıza aydınlıq gətirəsiz:**

**1.** Binəqədi rayonunda binaların üzlənməsinə dövlət büdcəsindən 2015-ci ilə qədər hər il nə qədər vəsait ayrılıb?

**2.** Vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi hansı nəticələr verib?

**3.** Ayrılmış vəsaitdən bilavasitə yanmış binanın üzlənməsinə nə qədər vəsait xərclənib?

**4.** Həmin binaya ayrılan vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi həyata keçirilibmi?

**5.** Keçirilibsə, nəticəsi necə olub?

Bundan başqa, yanan binada yanğının qəsdən törədilməsi haqda da fikirlər səslənib. Baş Prokurorluğun mətbuat xidmətinə də sorğu ilə müraciət etmişdik. Xidmət rəhbəri Eldar Sultanov bildirmişdi ki, iş üzrə istintaq-əməliyyat qrupu hadisənin qəsdən törədilməsi fərziyyəsi ətrafında da zəruri və təxirəsalınmaz istintaq hərəkətləri, əməliyyat-axtarış tədbirlərini həyata keçirir.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 218 (6246) 3 oktyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Oktyabrın ilk gecəci Qarabağda gərgin döyüşlər - düşmən daha 2 əsgərini itirdi

## Ağır dönəmini yaşayan Sərkisyan rejimi Azərbaycana meydan oxuyarkən kimə və nəyə arxayındır, "Səhra tülküsü"nü danışdıran hansı qüvvədir? Hərbi və siyasi ekspertlər son durumu şərh edir...

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində gərginlik davam edir. Müdafiə Nazirliyinin məlumatına görə, oktyabrın 1-i və 2-də qoşunların təmas xəttində müxtəlif istiqamətlərdə Silahlı Qüvvələrimizin bölmələrinin həyata keçirdiyi qabaqlayıcı və vaxtında görülən tədbirlər nəticəsində düşmənin hərəkət fəaliyyətinin qarşısı alınıb. Silahlı Qüvvələrimizin bölmələrinin vurduğu zərbələrlə qarşı tərəfin iki hərbi qulluqçusu məhv edilib, xeyli sayda yaralısı var.**
**Məlumatda daha sonra deyilir ki, Azərbaycan Ordusu heç bir itki vermədən bütün cəbhəboyu əməliyyat şəraitinə tam nəzarət edir.**

Düşmən ordusunun növbəti dəfə təxribata əl atması Ermənistan prezidenti Serj Sərkisyanın rəsmi Bakıya ünvanlı hədələrindən sonraya təsadüf edir. Bu da onu göstərir ki, cəbhədəki gərginlik və itkilər Sərkisyan rejiminin özünə lazımdır. Faktiki olaraq yaşanan gərginliklər erməni cəmiyyətinin anti-Sərkisyan aksiyalarını arxa plana keçirib. Erməni prezident BMT Baş Assambleyasının 70-cı sessiyasında çıxışı zamanı deyib ki, Azərbaycan "aqressiv siyasətini" dayandırmasa, Ermənistan siyasi və hərbi addımlara əl atacaq.

Bu fikirlər bir daha Ermənistanın işğalçılıq siyasətinin təsdiqidir. Lakin təəssüf doğuran budur ki, BMT-nin ali kürsüsündən cinayətlərinə haqq qazandıran işağlçı Ermənistanın liderinə təşkilat rəhbərliyindən Baş Assambleyasının kağız üzərində qalmış qətnamələrini xatırladan olmayıb. Yalnız Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sessiyanın ümumi müzakirələrindəki çıxışında düşmən ölkə rəhbərinin cavabını verib və qətnamələrə diqqət çəkib.

Nazir vurğulayıb ki, Ermənistan prezidenti müzakirələr zamanı saxtakarlıq, təhrif və yalan yığımından ibarət çıxışında reallıqda öz hökuməti tərəfindən məhəl qoyulmayan və əksinə gedilən prinsip və dəyərlər barəsində mühazirə oxumağa cəhd edib: "Beynəlxalq ictimaiyyət uşaq, qadın və ahıllar da daxil olmaqla, azərbaycanlı mülki şəxslərin Ermənistanın işğalçı qoşunları tərəfindən amansız qırğınını, Ermənistanda ölkənin bütün siyasi elitasını qətlə yetirməklə hərbi diktaturanın yaradılmasını və saxta prezident seçkilərinə etiraz edən dinc nümayişçilərin öldürülməsinin hələ də xatırlayır. Ermənistanın müharibəyə başlaması və Azərbaycana qarşı güc tətbiq etməsi, onun ərazisinin beşdə birini, o cümlədən Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonu işğal etməsi, bir milyona yaxın azərbaycanlını öz evlərindən zorla qovaraq zəbt edilmiş ərazilərdə etnik təmizləmə həyata keçirməsi və münaqişə ərzində digər ağır cinayətlər törətməsi hamıya yaxşı məlumdur. Beynəlxalq ictimaiyyət Azərbaycana qarşı gücün tətbiqini və nəticə etibarilə, onun ərazilərinin işğal edilməsini davamlı olaraq kəskin şəkildə pisləyib.

*****

Elə beynəlxalq birliyin ikili standartları və işğalçı ilə yumşaq davranmağının nəticəsidir ki, işğalda iştirakçı olan erməni hərbçilər də növbəti dəfə Azərbaycana qarşı hədələyici tonda danışmağa başlayıblar. Əslində Haaqa Tribunalı qarşısında dayanmalı olan, Şuşanı işğal etmiş erməni generalı Arkadi Ter-Tadevosyan Azərbaycana qarşı təhdid dolu sözlər söyləyib. "Səhra tülküsü" ləqəbli erməni generalı Azərbaycanın irimiqyaslı müharibəyə hazırlandığını bildirib. Onun sözlərinə görə, sərhəddə vəziyyətin belə kəskinləşməsi geniş beynəlxalq rezonansı doğurub. Erməni cani hesab edir ki, əgər müharibə başlasa, Ermənistan Azərbaycan neft borularına raket zərbələri endirəcək və nəticədə Azərbaycan müharibəni uduzacaq. Ermənistanda boru və başqa obyekt olmadığını deyən general qəfildən barmağını dişdiyərək Atom Elektrik Stansiyasının olduğunu yadına salıb. Arkadi Ter-Tadevosyan bildirib ki, əgər kimsə AES-i vursa burdan Ermənistan ciddi zərər görəcək. Ter-Tadevosyan ATƏT-in Minsk Qrupunun fəaliyyətindən də danışıb. O bildirib ki, Minsk Qrupunun Ermənistan və Azərbaycan arasındakı indiki ziddiyyətlərin həllini tapmaq üçün verdiyi bəyanatları qaneedici deyil: "Azərbaycan Minsk Qrupunun formatını dəyişdirmək və yeni formata Türkiyəni daxil etmək istəyir, amma bu mümkün deyil. Bizim regionumuzda sülh Minsk qrupundan asılıdır. Türkiyənin Minsk Qrupuna daxil edilməsi Ermənistan üçün əlverişsiz şərait yaradar".

**Qardaş Türkiyədən Azərbaycana növbəti dəstək BMT tribunasından verilib.** "Cənubi Qafqaz sülh, təhlükəsizlik və bölgəmizin rifahı baxımından əhəmiyyətli yer tutur. Lakin orada hələ də mövcud olan münaqişələr və qeyri-sabit vəziyyət bu regionu zəiflədir". Bunu Nyu-Yorkda BMT Baş Assambleyasının 70-ci sessiyası çərçivəsində çıxışı zamanı Türkiyənin baş naziri Əhməd Davudoğlu bildirib. O, təəssüflə qeyd edib ki, Cənubi Qafqazdakı münaqişələr hələ də həll olunmamış qalır. A.Davudoğlu Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünə hörmət əsasında həll edilməsinin vacibliyini bildirib: "Biz Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında münaqişənin sülh yolu ilə həlli üçün səylərimizi əzmlə davam etdirəcəyik. Bu eynilə Gürcüstana da aiddir. Biz bu ölkənin də ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik". Yeri gəlmişkən, erməni KİV-ləri Davudoğlunun çıxışına həssas yanaşaraq Azərbaycana verilən dəstəyi tirajlayıblar.

***

**Qeyd edək ki, sentyabr ayında iki qardaş ölkənin hərbçiləri genişmiqyaslı təlimlər keçirib.** Üstəlik, oktyabrın 5-də Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gələcək. Səfər çərçivəsində qonağın Müdafiə Nazirliyində görüşləri planlaşdırılır. Milli Məclis isə son plenar iclasında Türkiyə və Azərbaycanın hərbi əməkdaşlığı ilə əlaqədar mühüm məsələləri nəzərdə tutan bəyannaməni təsdiqləyib. Bütün bunlar Azərbaycanın Qarabağı xilas əməliyyatlarında Türkiyənin imkanlarından da istifadə edəcəyi barədə məlumatların ciddiliyini artırır. Belə bir məqamda Türkiyə hökumətinin də Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı narahatlığı dilə gətirməsi təbii ki, düşməni narahat edir. Təbii ki, regiondakı münaqişə ocaqları Türkiyəni də təhdid edir. Xüsusilə də PKK-nın sığınacaq kimi Qarabağ torpaqlarını münbit ərazi kimi görməsi təkcə Azərbaycan üçün təhlükəli perspektiv vəd etmir. Ancaq Ankaranın Qarabağdakı antiterror əməliyyatlarında iştirakı Türkiyənin NATO ölkəsi olması baxımından tam real sayılmır.

**Politoloq Arzu Nağıyev** mövqzunu şərh edərkən bildirdi ki, Türkiyənin baş naziri Əhməd Davudoğlulunun mövqeyi anlaşılandır: "Məlumdur ki, bir müddət əvvəl Türkiyənin regional münaqişələrin həllinə və digər proseslərə təsir mexanizmi daha güclü idi və hətta dünyanın super gücləri də ona dəstəkçi idilər. Lakin son vaxtlar Rusiyanın Suriya, İran və İraqla bağlı apardığı siyasət bu mövqeni nəzərə carpacaq dərəcədə zəiflətdi. Eyni zamanda daxildə baş verənlər, PKK-ya qarşı aparılan əməliyyatlar, İŞİD-lə mübarizə, seçkilər ərəfəsində baş verən terror aktları, yeni hökumətin formalaşmasında qarşıya çıxan çətinliklər da buna təsir etdi. Məlumdur ki, Türkiyə daim Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın bir saylı dəstəkçisi olub və Azərbaycanın leyhinə yüksək beynəlxalq tribunalardan fikirlər söyləyib, Ermənistanla məhz bu səbəbdən bütün təzyiqlərə baxmayaraq sərhədləri açmayıb".

**A.Nağıyev bu baxımdan BMT Baş Assambleyasının 70-ci sessiyası çərçivəsində Davudoğlunun çıxışını təqdirəlayiq sayır:** "Baş nazir öz çıxışında Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi məsələsinin vacibliyini vurğulamaqla, münaqişənin həllinə də diqqət yetirməyi məqsəduyğun sayıb. Bundan başqa Gürcüstan və ümumiyyətlə, Cənubi Qafqazla bağlı təhdidləri ön plana çəkməklə bir daha regional layihələrin məhz buna görə həyata keçmədiyini vurğulayır. Düşünürəm ki, Türkiyənin bu mövqeyi münaqişə ilə bağlı beynəlxalq təşkilatların işində müəyyən qədər dönüş yarada bilər".

Yuxarıdakı faktlar bir daha onun təsdiqidir ki, ermənilər həm beynəlxalq kürsülərdə, həm də təmas xəttində təxribatlar seriyasını davam etdirirlər. Belə vəziyyətin böyük savaşla nəticələnəcəyini isə əksəriyyət real sayır. Xüsusilə də Azərbaycanın iki gün öncə hətta zenit-raket divizionunun təlimlərini keçirməsi müharibə ehtimallarının ciddiləşdiyini deməyə əsas yaradır.

***

**Hərbi ekspert Üzeyir Cəfərov** "Yeni Müsavat"a cəbhədəki durmu şərh edərkən dedi ki, Azərbaycan dövləti və onun Silahlı Qüvvələri son vaxtlar çoxlarının yuxusuna haram qatıb: "Hara baxırsan təlaş, hara diqqət yetirirsən, Ermənistan daxil olmaqla havadarları qarışıq, narahatçılıq və əsəbilik var. Bəli, Azərbaycan müharibəyə hazırlaşır və bu proses o vaxta kimi davam edəcək ki, ərazi bütövlüyümüz tam bərpa edilməyəcək və suverenliyimiz təmin olunmayacaq. Bunun başqa adı yoxdur. Qarabağ münaqişəsi Azərbaycanın şərtləri çərçivəsində həllini tapmayacaqsa biz gecə-gündüz bu prosesi aparacağıq və bunu kimsə bizə qadağan edə bilməz. Bir neçə gün bundan öncə başa çatan möhtəşəm 65 minlik təlim toplanışı, indi də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Hərbi Hava Qüvvələri hava hücumundan müdafiə qoşunlarının silahlanmasına daxil olunan növbəti "Buk-MB" zenit-raket divizionunun komplekslərindən döyüş-sınaq atışları dediklərimizin tam sübutudur".

**Hərbi ekspert bütün bunları normal sayır:** "20 ildən çox müddətdə biz dözüm və səbr nümayiş etdirdik. Ancaq beynəlxalq qurumlar Ermənistanın işğalçı dövlət olmasını ona başa sala bilmədilər və hesab edirəm ki, yavaş-yavaş hər şey aydınlaşır və çoxdan gözlədiyimiz o məqam yetişir". **Ü.Cəfərov erməni prezidentin və generalın hədələrinə də reaksiya verdi:** "Sözsüz ki, işğalçı tərəf də, onun havadarları da bərk narahatdırlar. Elə bu illər ərzində Azərbaycanın ünvanına saysız-hesabsız hədələr yağdıran o mənfur erməni generalı Arkadi Ter-Tadevosyan da gözəl başa düşür ki, Azərbaycan yaxın vaxtlarda çoxlarını şoka sala biləcək addım atmaqda tam israrlıdır. Adı da özünə layiq olan bu "səhra tülküsü" ləqəbli erməni general da anlayır ki, Azərbaycanın hərbi sahədə atdığı bütün addımlar məhz müharibəyə, ərazilərin düşmən qüvvələrindən təmizlənməsinə hesablanıb. Bəzi ekspert və təhlilçilərin verdikləri açqılamalara da hörmətlə yanaşmaqla yanaşı, demək, istəyirəm ki, müharibə qərarı hardasa deyil, məhz Bakıda veriləcək. Buna heç kimin şübhəsi olmamalıdır. Bizim hərbi-siyası rəhbərlik qərar qəbul edəndə bunu heç kimdən soruşmayacaq, o cümlədən də Rusiyanın Ermənistandakı səfirindən də. Bu adamlar İrəvanda oturub rəsmi Bakının adından guya müharibə olmayacağı haqqında danışırlar. Özləri də yaxşı anlayırlar ki, söylədikləri sadəcə təmsil etdikləri ölkənin Ermənistanın yanında olması və onlara çətin vəziyyətdə hayan durmaqdan başqa bir şey deyil. Yaxşı olardı ki, onlar işğalçı dövlətin əhalisinə və siyasətçilərinə müraciət edəydilər ki, Azərbaycanın əsəbləri ilə oynamasınlar və Qarabağı, ətraf rayonları işğa-



lçı qüvvələrdən boşaltsınlar. Belədə isə, məsələ öz həllini tapmadığına görə, istənilən an müharibə riski qalır və bu təhlükə anbaan yaxınlaşmaqdadır".

Şübhə yoxdur ki, özünün ağır dönəmini yaşayan Ermənistan Rusiyaya arxalandığı üçün Azərbaycanın üstünə kükrəmək cəsarətində bulunur. Ancaq paralel olaraq Moskvanın Bakıdan qopardığı hansısa güzəştlər müqabilində ərazilərin müəyyən qisminin azadlığı üçün İrəvana təsir göstərəcəyi iddia olunur.

***

**Siyasi şərhçi Şahin Cəfərli** isə hesab edir ki, qardaş ölkə Azərbaycana siyasi-diplomatik dəstəyini güclü şəkildə davam etdirəcək, beynəlxalq qurumlarda bizim mövqeyimizi dəstəkləyəcək: "Türkiyənin Azərbaycana müəyyən silah sistemləri satması da sirr deyil və Azərbaycan Türkiyə istehsalı olan istənilən silahı bundan sonra da ala biləcək, bu da məsələnin hərbi dəstək tərəfidir. Yəni Türkiyənin siyasi, diplomatik, mənəvi və müəyyən dərəcədə hərbi dəstəyinə həmişə ümid edə bilərik, lakin Türkiyə ordusunun ehtimal edilən müharibədə birbaşa iştirakından söhbət gedə bilməz".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 218 (6246) 3 oktyabr 2015

# Bakıda karaoke-klubların sayı artıb

## Bura istirahət üçün təkcə gənclər yox, yaşlılar da təşrif buyurur; onları cəlbedici edən səbəblər - bu yazıda...

**Son dövrlər dünya gənclərinin sevimli əyləncəsinə çevrilən karaokelərə maraq Azərbaycanda da artıb. Apardığımız müşahidələr zamanı məlum oldu ki, bir neçə il ərzində Bakıda sayı-hesabı olmayan, yüzlərcə karoke-klub fəaliyyət göstərməyə başlayıb. Maraqlıdır ki, bu cür məkanlara təşrif buyurub fonoqrama altında mahnı oxumaqla asudə vaxt keçirmək istəyənlər təkcə gənclər deyil, yaşlı insanlar da karaoke pərəstişkarına çevriliblər.**

Məlumat üçün bildirək ki, fonoqramanın müşayiəti ilə oxunan karaoke ifası ötən əsrin 70-ci illərində Yaponiyada meydana çıxıb. "Karaoke" sözü də yapon dilində iki sözün birləşməsindən yaranıb: "kara" ("karappo") - "boş", "oke" ("okesutura") - "orkestr" mənasındadır. Yəni "karaoke" - "boş orkestr", fonoqrama ilə oxunan canlı ifa anlamına gəlir.

**Karaoke-klubun Azərbaycanda ilk yaradıcısının Gəncəvi Məmmədov adlı şəxs olduğu bildirilir.** Deyilənə görə o, Rusiyada bu cür klubların olduğunu görüb eynisi Bakıda açmaq qərarına gəlir. Yaradılan ilk klub paytaxt sakinlərinin böyük marağına səbəb olur və qısa zamanda şəhərin müxtəlif yerlərində çoxsaylı bu cür məkanlar açılmağa başlayır.

Karaoke sevərlərin ən çox üz tutduqları karaoke-klublardan birində, Bakının mərkəzində yerləşən "Cosmopolitan"da olduq. İçəri daxil olarkən müştəri çoxluğunun şahidi olduq. Klub restoran və kokteyl-barın elementlərini zövqlə özündə birləşdirə bilib. Klubun mərkəzində yerləşdirilən ağ royal xüsusilə diqqətimizi cəlb etdi. Burada müştərilərə təkcə fonoqramla yox, fortepianonun da müşayiəti ilə canlı oxumaq imkanı verilir.

**Klubda olarkən Gülşən İbadova adlı vokalistin ifalarına heyran qaldıq.** Onun royalın müşayiəti ilə peşəkarcasına milli musiqimizin gözəl nümunələrindən olan "Qızıl üzük", "Getmə-getmə" mahnılarını ifa etməsi ətrafdakı bütün müştərilərin alqışlarına səbəb oldu. Konservatoriyanın ötənilki məzunu olan İbadovanın fonoqrama ilə oxuduğu mahnılar da möhtəşəm idi.



İfaçı bizimlə söhbət edərkən bildirdi ki, klassik səhnədən bir qədər uzaqlaşdığı üçün dostları ilə birgə tez-tez bura əylənməyə gəlir: "Vaxtaşırı əylənmək üçün bura gəlirəm. Başqa karaoke-klublardan fərqli olaraq burda özümü çox rahat hiss edirəm. Çünki bəzən getdiyimiz klublarda yerli və türk mahnıları olmur. Lakin burda hər istədiyimiz musiqini sifariş edə bilirik".



**İfaçı klubda olarkən başına gələn maraqlı hadisədən də danışıdı:** "Mən əsasən klassik, vokal musiqilər ifa edirəm. Səs diapozonum çox yüksəkdir. Buna görə bəzən ifamla kimlərisə istəmiyərəkdən belə narahat edirəm (gülür). Bir dəfə ifama necə qapıldımsa yaxınlıqdakı binanın sakinləri klubun rəhbərliyinə şikayət etmişdi. Hətta polis gəlib soruşdu ki, "burda nə baş verir?". Buna görə də klubun rəhbəri Kənan bəy mən ifa edərkən yarızarafat "ifaya çox qapılma" deyir (gülür)".

**Elə bu an Kənan Şərifov bizə yaxınlaşaraq söhbətimizə qoşulur:** "Gülşən xanımın səsi o qədər möhtəşəmdir ki, bəzən biz tab gətirə bilmirik (gülür). Artıq bir neçə aydır ki, karaoke-klubumuz fəaliyyət göstərir. Bu müddətdə xeyli sayda gənc, müxtəlif peşə sahibləri olan insanlar, ictimaiyyətdə nüfuzu olan şəxslər təşrif buyurub. Onların arasında Flora Kərimova kimi görkəmli şəxslər də var. Bir çox məşhurlar çox zaman bura fotosessiya etmək üçün gəlir. Klubun internet səhfəsində bu barədə məlumatlar var. Əsasən istirahət günləri klubumuz müştərilərlə dolu olur".

**Klub rəhbəri sifariş edilən mahnılardan da danışdı:** "Yaşlı nəsil daha çox retro, nostalji mahnıları sifariş edir. Gənclər isə əsasən xarici və rus mahnılarına üstünlük verir. Klubumuzda ən müasir avadanlıqlar var ki, bunun da sayəsində hər kəs istədiyi mahnını sifariş edib oxuyur, musiqi istedadını nümayiş etdirir. Bu yolla insanlar öz əhval-ruhiyyələrini dəyişmiş olur, stressdən, xoşagəlməz problemlərdən bir müddət uzaqlaşırlar. Klubumuzda vaxt məhdudiyyəti yoxdur. Bəzən müştərilər gecə saat 4-5 radələrinədək əylənmək istəyir və biz məmuniyyətlə bu imkanı onlara verirk".

**Kənan Şərifov getdikcə bir çox gənclərin musiqi zövqünün korlandığını dedi:** "Son vaxtlar biz çox gənclərin musiqi zövqü korlanmağa başlayıb. Bayağı sözləri, anlaşılmayan musiqisi olan mahnılar baş alıb gedir. Bəzən görürsən ki, gözəl görünüşlü gənc bir xanım elə bir bayağı musiqiçinin bayağı mahnısını sifariş edir, məəttəl qalırsan. Bunun qarşısını almaq lazımdır. Bayağı musiqilər və ifaçılar aradan qaldırılmalıdır".



**Klubun digər əməkdaşı ilə söhbətimizdən məlum oldu ki, bir mahnın sifarişi 2 manatdır:** "İstəlinən mahnının qiyməti 2 manatdır. Klub eyni zamanda restoran və kokteyl-bar kimi də fəaliyyət göstərir. Menyudakı qiymətlərimiz də sərfəlidir".



**Müştərilər arasında türk vətəndaşları da var idi. Saleh adlı müştəri özü ifa etməsə də dostlarının ifasını maraqla izləyirdi. Dediyinə görə, səsi o qədər də yaxşı olmadığı üçün daha çox dostlarını dinləməyə üstünlük verir:** "İstanbulda olarkən tez-tez karaoke-klublara əylənməyə gedirdim. Bakıda işlərimin çoxluğundan əylənməyə elə də vaxt tapa bilmirəm. İstirahət günlərimdə iş yoldaşlarım və ya digər dostlarımla birgə şəhər gəzintisinə çıxır, imkan olduqca karaoke-kluba gedirik. Bakıda olarkən bir şeyi müşahidə etdim. Sizin insanların musiqi mədəniyyəti, istedadı çox yüksək səviyyədədir. Bir çox evlərdə fortepiano var, uşaqlar musiqi təhsili alır, professional musiqi ilə yaxından tanış olurlar. Az qala hər kəs oxumağı bacarır. Karaoke-klublarda olarkən bir daha bunun şahidi oluram".

**Kadri Özkan adlı digər müştəri isə Bakıdakı bəzi karaoke-klublardan şikayətləndi:** "Buranı tapanadək xeyli sayda klublarda oldum. İçəri keçib əyləşirdik, mahnı sifarişi verirdik, bizə bildirirdilər ki, nə türk, nə də Azərbaycan mahnıları var. Kor-peşman klubu tərk etməli olurduq. Bu, çox təəssüf edici haldır. Belə çıxır, bəzi klublar Azərbaycan musiqisinə, dilinə hörmət etmək istəmir. Bura Azərbaycandır və klublarda ilk növbədə Azərbaycan mahnıları olmalıdır".

Kadri sevərək ifa etdiyi karaoke mahnılardan da danışdı:

"Daha çox türk mahnıları sifariş edirəm. Onların arasında əsasən Rafet əl Roman, Halil Sezai kimi ifaçıların mahnıları var. Mahnı oxuyanda özümü səhnədə ifa edirmiş kimi hiss edirəm (gülür). Bu məni çox əyləndirir və xüsusi zövq alıram".

**Axşama doğru kluba yaşlı insanlar qrup şəkildə gəlməyə başladı. Onlar ifa etməsələr də, ətrafdakı ifaçıları maraqla izləyirdilər. Həmin qrupların birinə yaxınlaşıb söhbətləşdik. Məlum oldu ki, əksəriyyəti dövlət işlərində çalışan məmurlardır və hətta aralarında nazirliklərin birində vaxtilə müşavir işləmiş şəxs də var.**

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** *(enurez)*
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**



**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, ələ yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**



# Qərb dünyası qəddarlıqda Şərqlə necə yarışır?

## Psixoloqlardan ilginc nəzəriyyələr

**Müsbətlikləri ilə yanaşı, tarixin ən qəddar qatilləri də Qərbdən çıxıb. Amerikalılardan tutmuş, hollandlara, norveçlilərə qədər... Ən qəddar qatillər siyahısında daha çox onların adları yer alıb. Maraqlıdır ki, zaman-zaman dünyada vəhşətin, qəddarlığın ünvanı kimi Şərq ölkələri, Şərq insanı göstərilir. Amma faktlar çox vaxt bunun əksini deyir.**

Məsələn, son tendensiyalardan biri İŞİD-ə qoşulan qadınlar idi. Onların böyük əksəriyyətinin Qərb ölkələrindən olması xüsusilə diqqət çəkirdi. İlkin araşdırmalar üzə çıxarmışdı ki, əslində cihadçı qrupun sıralarında olan ABŞ, Fransa, Hollandiya, Kanada, Norveç və İsveçrə nümayəndələri olan qadınların ora üz tutmasında sosial medianın rolu böyükdür. Belə ki, müxtəlif sosial şəbəkələrdə yaradılan təhrikedici qruplar qadınların təşkilatlanmasında təkan rolunu oynayıb. Bundan başqa, internetdə bu qadınlara məsləhətlər, dəstək və səyahət təklifləri də verilir.

Ekspertlər isə hesab edirlər ki, cihada yardım etmək adı ilə İŞİD-ə qoşulanlar bir qayda olaraq sonradan qıfıl altında qalır və ancaq oradakı hərbçi kişilərə qulluq edirlər. İŞİD-çilər qadınları, gənc qızları ora cəlb etmək üçün internet, xüsusən də sosial şəbəkələrin gücündən istifadə edirlər. Cəlbedici reklam rolikləri, yüksək keyfiyyətli videolar, kompüter oyunları bu məqsədlə hazırlanır, sosial şəbəkələrə buraxılır. Necə deyərlər, onlar internet çatından, forumdan çıxmadan insanların arzu-istəkləri ilə oynayır, onları öz tərəflərinə çəkirlər.

Almaniya xüsusi xidmət orqanlarının araşdırması isə göstərir ki, Almaniyadan cihada qoşulmaq üçün gedənlərin 11 faizi qızlardır.

"İslam radikallığını dəstəkləyən qızlar bir qayda olaraq ailə zorakılığını yaşamış şəxslərdir. Onlar şəhid-döyüşçünün qadına barmağı ilə toxunmayacağı fikrinə inanırlar və bu, onlara güvən hissi verir. Amma bununla yanaşı, döyüşçülərlə bağlı istənilən xəbərlər, öldürülən, qul kimi satılan qadınların yaşadıqlarını həmin xanımlar "qərb təbliğatı" hesab edirlər.

Amma bu, çoxsaylı nümunələrdən sadəcə biridir. Sosial araşdırmalar göstərir ki, qəddarlıq cahil cəmiyyətlərdə olduqca geniş yayılmış rəftar pozuqluğudur. İnsanlar uşaqlıq illərindən etibarən həmişə "eqoist olmağa, əvvəlcə öz mənfəətlərini qorumağa" təşviq edilirlər. "Həyatın bəzi həqiqətləri" olduğuna, buna görə də həyatda qalmaq üçün mərhəmətsiz və qəddar olmaq məcburiyyətində olduqlarına inandırılırlar.

Bunun nəticəsində də insanlar fərqində olmadan qəddarlığın fəlsəfəsini gizli-gizli, davamlı olaraq yaşamağa başlayırlar. Özlərindən soruşsalar əlbəttə, heç vaxt "nə qəddar olduqlarını qəbul edərlər", "nə də bir başqasının qəddar rəftar göstərdiyini təsdiqləyərlər". Amma şəxsiyyətlərinə dərindən təsir edən bu səhv dünyagörüşünün təsirləri həyatları boyunca göstərdikləri rəftarların çoxunda özünü göstərir.

Bir çox insan "qəddar" deyildiyi zaman "çox mərhəmətsiz, insanlara zülm etməyə meylli, özündən başqa heç kimi düşünməyən və əhəmiyyətsiz hesab edən, qəsdən pislik etməkdən və zərər verməkdən zövq alan insan modeli" xəyal edirlər. Buna görə də özlərinə "Sən çox qəddarsan" deyilsə, sərt reaksiya verər və dərhal bu tənqidi rədd edərlər.

Halbuki, əgər insan özünə edilən bu bənzətmə üzərində bir az daha dərin düşünsə, şəxsiyyətinin müəyyən istiqamətlərində və rəftarlarının bəzilərində qəddarlığın fəlsəfəsinə dair izlər tapacaqlar.

Bunun ən əhəmiyyətli səbəblərindən biri insan nəfsinin qəddarlığa meylli olaraq yaradılmasıdır. Nəfs eqoistdir, mənfəətçidir, ən çox özünü sevmək istəyir, mənfəətlərini qorumaq mövzusunda çox qərarlıdır. Nəfs həyatının sonuna qədər heç ara vermədən və yorulmadan insanı bu pisliklərə təşviq etmək üçün səy göstərir.

Bundan sonra "qəddar"lığı düzgün tanımaq lazımdır. Əlbəttə cəmiyyətdə "qəddarlığı ən qatı şəkildə yaşayan insanlar" var. "Heç gözünü qırpmadan cinayət işləyən, toplu qırğınlar edən, ac, yoxsul, kimsəsiz uşaqların mal-mülkünü oğurlamaqdan qorxmayan, yaşlılara, uşaqlara əziyyət etməkdən, onları xor görməkdən çəkinməyən və bunun kimi daha bir çox anormal rəftarı göstərən insanlar" həqiqətən qəddardırlar.

İnsanlarda məşhur olan bir başqa qəddarlıq növü də "qadın qəddarlığı"dır. Cahil cəmiyyətlərdə qadınların çoxu bir-birlərinə rəqabət, həsəd, münaqişə və önə keçmə gözüylə baxdıqları üçün bu yarış içərisində bir-birlərinə qarşı qəddar rəftarlar göstərməkdən çəkinmirlər. Rəqabətdə onları önə keçirəcək olan ünsürlər nələrdirsə bu mövzularda mərhəmətsizcə qarşı tərəfi əzəcək, hətta gözdən salıb tamamilə yollarına çıxmasına mane törədəcək rəftarlara müraciət edirlər. Bunların hər biri "qəddarlıq"dır.

Dünya psixoloqları isə bu tendensiyanı nümunə və faktların müşayiəti ilə çox dəqiq izah ediblər. Cahil cəmiyyətlərlə müqayisədə inkişaf etmiş toplumlarda insanlar daha çox firavan yaşayır, arzulara, məqsədlərə çatma daha asan başa gəlir. Nəticədə isə doyumluluq yaşanır. İnsanlar ekstrim, daha çox həyəcan yaşamaq arzusu ilə müvazinətlərini pozurlar. Bunun bir yolu narkotik maddədirsə, digəri də pozğun psixologiyanın təzahürlərindən olan qan, əzilmiş insan görmə həvəsidir. Məhz bu həvəsi yaşamaq üçün insanların qətllərə, serial cinayətlərə qurşanması öz əksini tapır.

Amma uşaqlıq travması da bu qətllərin törədilməsində mühüm faktordur. Uşaqlıqdan şiddət görən şəxslər gələcəkdə hansısa formada bunun intiqamını almağa çalışır. Əgər ona şiddət vermiş şəxsə qarşı bunun cavabını qaytarmaq imkanı yoxdursa, toplum bunun əzabını çəkir.

**Psixoloqlar həmçinin sübut edib ki, Qərb dünyasının Şərqlə müqayisədə qorxu filmləri, şiddət xarakterli kompüter oyunları, cizgi filmləri ilə daha erkəndən tanışdır. Xüsusən nəzərə alanda ki, bu filmlərin "ana vətəni" Qərb sayılır, bu halda tendensiya anlaşılandır. Həmin filmlərlə, oyunlarla yetişən insanın xarakterində də qəddarlıq ana xətti təşkil edəcək.**

❑ **Sevinc TELMANQIZI**

# Süni düyüləri necə tanımalı...

## Eyyub Hüseynov: "Qızılı və sarı düyülər GMO-dur"



**Bu günlərdə sosial şəbəkələrdə düyülərin plastikdən hazırlanmasını əks etdirən video yayılıb. Çində çəkilən bu videoda ucuz mal arxasınca qaçan istehlakçılar görünür ki, düyünün görünür ki, düyünü fabrikdə sintetik materialdan hazırlayırlar. Ancaq bu düyünün də tərkibi tamamilə sintetik deyil. Onun əsasını kartof kraxmalı təşkil edir, az miqdarda plastik isə ona düyü forması vermək üçün istifadə olunub.**

Videoda yeni məhsulu istifadə edən aşpazlar bildirirlər ki, bu cür düyüdən hazırlanan bir boşqab sıyığı yemək, polietilen paketi udmağa bərabərdir. Əsl düyüləri ələ götürəndə onların birinin böyük, birinin balaca, bəzilərinin qırıq olduğu görünür. Sintetik düyülər isə hamısı standart - eyni ölçüdə və formada olur. Hətta onları yanaşı qoyduqda süni düyü daha çox göz oxşayır, nəinki, təbii yolla əldə edilən düyü. Qeyd edək ki, sintetik düyünü onun hazırlanma vaxtına, bişdikdən sonrakı görünüşünə görə də ayırd etmək olur. Belə ki, sintetik məhsul bişmə zamanı nə qədər qaynamağından asılı olmayaraq, əzilmir. Uzunmüddətli qaynamadan sonra suyun üzərində polietilen plyonka yaranır.

Qeyd edək ki, bir müddət öncə də satışda saxta düyülərin olması barədə iddialar səslənirdi. İddialara görə müxtəlif ölkələrdən gətirilən bu məhsulların GMO-lu və orqanizm üçün təhlükəli olduğu vurğulanırdı. Qeyd edək ki, paytaxtda xarici ölkələrdən gətirilmə və mənşəyi məlum olmayan düyülərin satışda olduğu iddia edilir. Biz də marketlərdə daha çox hansı ölkələrin istehsalı olan düyülərin olduğunu, həmçinin insanları narahat edən sintetikadan hazırlanmış çin istehsalı olan düyülərin bizim də ölkəmizdə satışda olub olmadığını öyrənmək üçün bir neçə marketə baş çəkdik. Satışda çoxluğu yerli düyülər təşkil etsə də, Pakistan, Hindistan, Rusiya, İran və digər ölkələrdə istehsal olunan düyülərə də rast gəldik. Qiymətlər isə müxtəlif idi. Xarici ölkələrdən gətirilən düyülərin qiyməti yerli düyülərdən baha idi. Qeyd edək ki, xarici düyü adı altında satılan düyülərin üzərində Azərbaycanda qablaşdırılması haqda kiçik yazıya rast gəlinirdi. Satıcılar alıcıların daha çox yerli düyülər aldığını bildirirdilər. **Satıcı Elnur Rüstəmov** alıcıların daha çox Hindistan düyülərini aldığını bildirdi: "Amma ən yaxşısı elə yerli düyülərdir. Xaricdən gətirilən düyülər əslində Bakıda qablaşdırılır".

**Alıcı Turanə Abdullayeva** internetdə sözügedən videonu izlədiyini və bundan narahatlıq keçirdiyini bildirdi: "Çin məhsulları onsuzda ölkəni zəbt edib. Onların hamısı zərərlidir. İndi də bu düyü məsələsi çıxdı ortaya. Biz düyüdən çox istifadə edən millətik. Mən özüm tez-tez plov bişirirəm. Amma həmişə yerli düyüdən istifadə etmişəm. Puldan ötrü insanların səhhəti, həyatı ilə oynayırlar. Amma inanmıram ki, Azərbaycan bu cür düyüləri satışa buraxıb əhalini zəhərləsin".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** Azərbaycanda satışda sintetik düyülərin olmasının mümkünsüz olduğunu dedi: "Düyünün kraxmaldan və digər qatqılardan müəyyən standartlar əsasında hazırlanması birmənalı şəkildə istisna olunmur. Onun tərkibinə plastmasın qarışdırılması heç bir standartda nəzərdə tutulmayıb. Belə bir şey mümkün deyil. Düşünürəm ki, Azərbaycanda plastik qarışığı olan düyü yoxdur. Lakin Azərbaycanda Genetik Modifikasiya Olunmuş (GMO) düyülər var. Məsələn, qızılı və sarı düyülər Genetik Modifikasiya Olunmuş düyülərdir və əslində qida üçün yararsızdır. Prezidentin bu barədə xüsusi tapşırıqları olub ki, bu kimi halların qarşısı alınsın. Ancaq buna məhəl qoyan yoxdur. İstehlakçılar mediada yayılan bu məsələlərə rəğmən primitiv təcrübələr apara bilərlər. Məsələn düyünü yandırsınlar. Spesifik bitki qoxusu verməyən və yanan düyü əlbəttə ki, saxta düyüdür. Yaxud da düyünü içində su olan bir nəlbəkiyə tökub 10 gün saxlasınlar. O düyü cücərməsə demək ki, saxtadır və süni yollarla hazırlanıb. Bu təcrübəni istənilən insan evdə etməklə də yoxlaya bilər".

Biz də qurum sədrinin dediyi təcrübəni sınaqdan çıxardıq. Belə ki, yerli və Hindistan istehsalı olan iki düyünü ayrı -ayrılıqda kiçik bir nəlbəkiyə qoyub yandırmağa çalışdıq. Ancaq düyülərin yanmadı. Bu isə onun sintetikadan hazırlanmadığını deməyə əsas verir.

**Qurum sədri daha çox xarici ölkələrdən gətirilən düyülərin süni yolla hazırlanması fikrinə gəlincə plastmasdan hazırlanan düyülərin ölkəmizə gəlmə şansının olmadığını bildirdi**: "Mən inanmıram ki, İrandan gətirilən düyü plastmasla qarışdırılmış düyü olsun. Ancaq süni düyü olması ola bilər. İrandan Azərbaycana GMO düyülərin gətirilməsi istisna olunmur. Çünki İranda İslam ölkəsi olmasına baxmayaraq GMO məhsulları yetişdirilir. O cümlədən də digər ölkələrdən gələn düyülər GMO ola bilər. Ancaq sintetikadan hazırlanan düyülər ölkəmizdə satışda yoxdur".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**





